# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

SƏS
№ 088 (7256)
22 may 2025-ci il.
Qiyməti 60 qəpik

## Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib



5

## Türk dövlətləri vahid platformada: inkişaf və tərəqqi dövrü



2

**Prezident İlham Əliyev: "Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq"**

# Rusiya - Ukrayna: danışıqları pozmağa kim cəhd edir?



4

## "28 may müstəqilliyimizin tarixində ən şərəfli zirvədir"




8

## Vaxtından əvvəl nübar, yoxsa orqanizmdə yaranacaq azar?



13

## Bəşəriyyət son seçim qarşısındadır



12

## Taksi sürücüləri kartla olan gedişlərdən imtina edirlər - SƏBƏB?




16

## Savaşanda elə savaş, bloka atılma



10

# Türk dövlətləri vahid platformada: inkişaf və tərəqqi dövrü

## Prezident İlham Əliyev: "Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq"

Türk dövlətləri ilə münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindəndir. Etnik və mədəni köklərimiz, dilimiz, ortaq keçmişimiz mövcud münasibətlərin əsasını təşkil edir. Çağdaş dünyamızda türkdilli dövlətlər arasında əməkdaşlıq daha güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Yeni bir dövrə qədəm qoyan Azərbaycan beynəlxalq təşkilatlarla, eləcə də, Türk Dövlətləri Təşkilatı ilə sıx əməkdaşlığa malikdir. Bildiyimiz kimi, ötən ilin iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirildi. Türk Dövlətləri Təşkilatının dövlət başçılarının Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi ilə bağlı qərar Astanada TDT-nin "Türk Əsri" çağırışı altında keçirilən 10-cu yubiley Zirvə görüşündə verilmişdir. "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusunda qeyri-rəsmi Zirvə görüşü Azərbaycan Respublikasının təşəbbüsü ilə baş tutmuşdu. Türk Dövlətləri Təşkilatının (TDT) Şuşada keçirilən qeyri-rəsmi Zirvə toplantısının yekunları üzrə qəbul edilən Qarabağ Bəyannaməsi türk dövlətləri arasında gələcək əməkdaşlığın yol xəritəsi oldu.

Geniş Türk dünyasından olan xalqların bir araya gətirilməsində Şuşa şəhərinin mənəvi əhəmiyyəti danılmazdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra Şuşada keçirilən görüş Türk xalqlarının birliyinin, onların sülhə və ədalətə sadiqliyinin bariz təzahürüdür.






Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün keçirilməsi tarixi əhəmiyyət baxımından diqqəti çəkəndir. Son illər Azərbaycanın Türk dünyası ölkələri ilə əlaqələri yüksələn xətlə inkişaf edir, əməkdaşlığı isə genişlənərək demək olar ki, bütün sahələri əhatələyir. Belə bir tədbirin keçirilməsi Türk dövlətləri arasında əlaqələrin intensiv xarakter aldığını və dövrün tələblərinə, baş verən proseslərə uyğun olaraq sürətlə inkişaf etdiriyinin daha bir göstəricisidir. XXI əsrin türk dünyasının inkişaf və tərəqqi dövrünə çevrilməsi istiqamətində ardıcıl işlər görülür. Bu görüşün təşkili türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi baxımından əhəmiyyət daşıyır.

TDT - in siyasi, iqtisadi, mədəni sahələrdə, təhlükəsizliyin təmin edilməsi istiqamətində birgə fəaliyyət göstərməsi günün tələbidir. Tərəflərin bir-birinin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı, habelə daxili işlərinə qarışmamaq prinsipləri əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində əməkdaşlığa üstünlük verməsi də qlobal miqyasda yaranan vəziyyətin şərtlərindən sayıla bilər. "Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir", - deyə Azərbaycan Prezidenti çıxışında bildirib.

Türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında






Bəyannamədə qeyd olunduğu kimi, Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edir.

Cari ilin 21 may tarixində isə Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. "Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxışı zamanı bildirib.

Xatırladaq ki, Azərbaycanın bu istiqamətdə töhfələrindən biri Türk Şurasının yaradılması ilə bağlı sazişin məhz ölkəmizdə imzalanmasıdır. Saziş Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə prezidentləri tərəfindən imzalanıbdır. Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyəti dövründə türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım edib. Əlbəttə ki, Türk Şurasının yaradılmasına dair qərarın, Naxçıvanda keçirilən Zirvə Görüşündə qəbul edilməsi türk dünyası üçün rəmzi əhəmiyyət daşıyır. Naxçıvan sazişi ilə türkdilli dövlətlər arasında əməkdaşlığın təsisatlanmış yeni formatı yaradılmışdır. Ötən müddət ərizində bu əlaqələr genişlənib. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə qəbul olunan tarixi qərarlardan biri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar oldu.

**"XƏZƏR DƏNİZİNDƏ 50-DƏN ÇOX TİCARƏT GƏMİSİ OLAN AZƏRBAYCAN TÜRK DÖVLƏTLƏRİ ÜÇÜN ÖNƏMLİ TRANZİT XİDMƏTLƏRİ GÖSTƏRİR"**

əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə türk dövlətləri arasında bağlılıq daha da inkişaf etdirilib. "Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır", - deyən Prezident bildirib ki, Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk: "Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

*Ardı Səh. 3*

# Türk dövlətləri vahid platformada: inkişaf və tərəqqi dövrü

## Prezident İlham Əliyev: "Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq"



Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.



### BİRGƏ SƏYLƏRİ DAVAM ETDİRMƏYƏ SADİQLİK

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.



Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Bəyannamədə təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu yaşıl enerji dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir. Üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması əsas məsələlər sırasındadır.

Vurğulayaq ki, Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb. Ortaq soy-kök, ortaq tarix və mədəniyyət, milli dəyərlər, eyni zamanda, üzv ölkələr arasında qarşılıqlı dəstək, mövcud potensial və həyata keçiriləcək layihələr Türk Dövlətləri Təşkilatının rolunu daha da artırır və onu dünyanın aparıcı beynəlxalq qurumlarından birinə çevirir. Azərbaycan Türk dünyasının birliyi, həmrəyliyi, təhlükəsizliyi və rifahına böyük və davamlı töhfə verərək, TDT-nin vahid ruhunun gücləndirilməsində qətiyyətli liderlik nümayiş etdirib.

***Zümrüd BAYRAMOVA***

Əvvəli Səh. 2

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq".

Dövlət başçımız çıxışında onu da bildirib ki, Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir: "Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.



Hörmətli həmkarlar, bildiyiniz kimi, təxminən 200 ölkənin yekdil qərarı ilə 2024-cü ilin noyabr ayında Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirilmişdir. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, COP29-u yüksək səviyyədə təşkil etməyə nail olduq.Qeydiyyatdan keçmiş 77 min iştirakçı 197 ölkəni təmsil edirdi. Konfransda 70 dövlət və hökumət başçısı iştirak etmişdir.

Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi".

COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişinin imzalandığını da diqqətə çəkən Azərbaycan Prezidenti bildirib ki, bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır.

TDT-yə üzv ölkələr arasında yaxın dostluq və qardaşlıq əlaqələrinin olması, onların bir-birini qarşılıqlı şəkildə dəstəkləməsi təşkilatın inkişaf perspektivlərini şərtləndirən əsas amillərdən biridir. Belə ki, hələ 2020-ci ildə Vətən müharibəsi zamanı bəziləri hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmasına baxmayaraq, türk dövlətləri Azərbaycanın haqlı mübarizəsinə öz dəstəklərini verdilər. 2020-ci il türk dünyası üçün yadda qalan oldu. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir.

Azərbaycan tarixi Zəfərdən sonra azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini davam etdirir. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevirir. Tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub. Hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Bildiyimiz kimi, Türk Dövlətləri Təşkilatına üzv olan dövlətlər Azərbaycanın Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işlərinə də öz töhfələrini verirlər.

### TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI TƏRƏFİNDƏN İMZALANAN BƏYANNAMƏ

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir. Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

# Rusiya - Ukrayna: danışıqları pozmağa kim cəhd edir?



***Rusiya və Ukrayna arasında danışıqlar belə görünür ki, Avropa üçün əlverişsiz hesab olunur. Doğrudur, mayın 16-da İstanbulda Dolmabağça sarayında Rusiya ilə Ukrayna arasında olan danışıqlar son üç ildə Rusiya və Ukrayna nümayəndə heyətlərinin ilk dəfə üzbəüz danışıqları kimi tarixə düşdü, amma kimlərsə bundan heç də razı görünmürlər. Bu görüşün kimləri isə qane etmədiyi onların həmin danışıqları pozmağa cəhd etmələrindən bəllidir.***

Bütün dünyanı indi ən çox maraqlarndıran sual məhs İstanbulda Dolmabağça sarayında keçirilən görüş və həmin görüşlə bağlı məqamlardır. Maraqlıdır, həqiqətən də görəsən, İstanbulda danışıqlar necə keçdi? Rusiya nümayəndə heyəti rəqiblərini niyə bir gündən çox gözləməli oldu? Zelenski niyə görüşü pozmağa çalışdı? Bəs tərəflər sonda hansı məxrəcə gəldilər? Nə kimi nəticə hasil oldu? Əlbəttə ki, indi dünya ictimaiyyətini ən çox maraqlandıran suallardan biri məhz budur. Bu sual da öz növbəsində görüşün nəticələri və həmin görüşlə bağlı hərtərəfli düşünməyə vadar edir. Hər halda, düşünməyə dəyər və düşündürücü olan məqamlar kifayət qədər çoxdur.

## İstanbuldakı danışıqların nəticələri Rusiya tərəfinin baxışı ilə

Bildiyimiz kimi, danışıqlara Türkiyənin xarici işlər naziri Hakan Fidan başlayıb. "Bizi qarşıda iki yol gözləyir. Onlardan biri sülhə aparır, digəri isə daha böyük dağıntılara gətirib çıxaracaq", deyə türkiyəli nazir bildirib və bununla çox ciddi mesaj vermiş olub. Diqqətə çatdıraq ki, danışıqlar bağlı qapılar arxasında iki saata qədər davam edib və bundan sonra Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski çoxdan gözlənilən bəyanatla çıxış edib.

"Biz nə ilə bağlı razılığa gəldik? Birincisi, yaxın günlərdə min nəfərə min nəfər, yəni, genişmiqyaslı əsir mübadiləsi olacaq. İkincisi, Ukrayna tərəfi dövlət başçıları arasında birbaşa danışıqların aparılmasını xahiş etdi və biz bu xahişi nəzərə aldıq. Üçüncüsü, biz razılaşdıq ki, hər bir tərəf mümkün atəşkəslə bağlı öz baxışını təqdim edəcək və onu ətraflı şəkildə yazacaq. Bundan sonra da razılaşdıq. Bu, bizim danışıqlarımızdır", deyə İstanbuldakı danışıqlarda Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski təfərrüatları bölüşüb.

## Kiyevin danışıqlarla bağlı fərqli qənaəti və birbaşa təzyiq sayəsində dəyişkən mövqeyi

Danışıqlara gedən yol Ukrayna tərəfi üçün çox "uzun" görünüb. Rusiya nümayəndə heyəti bir gündən çox rəqiblərini gözləməli olub. Sona qədər Kiyev hakimiyyəti danışıqlara uçub-uçmayacağına belə qərar verə bilməyirmiş. "Mənə elə gəlir ki, Rusiya tərəfi lap əvvəldən başa düşürdü ki, Ukrayna bu danışıqlar prosesini hər cür torpeda edəcək və ona görə də maksimum ehtiyatla, belə demək mümkünsə, gecikmə ilə, yəni, ukraynalılara bütün işarələnmiş kartları masaya qoymaq imkanı vermək üçün hərəkətə keçib", deyə hərbi ekspert Aleksey Anpiloqov fikirlərini bölüşüb.

Xatırladaq ki, mayın 11-nə keçən gecə Vladimir Putin Kiyevə ilkin şərt olmadan birbaşa danışıqları bərpa etməyi və görüş üçün tarixi mayın 15-nə təyin etməyi təklif edib. Zelenski və onun ofisinin rəhbəri Andrey Yermak da bir-birinin ardınca bildiriblər ki, əvvəlcə 30 günlük atəşkəs elan edilməsi şərt ilə Kiyev buna razıdır. Ancaq Ukrayna tərəfi tez bir zamanda bu mövqelərində də dəyişkənlik nümayiş etdirməli olublar və tam çılpaqlığı ilə görünür ki, bu, açıq-aydın olaraq, ukraynalıların öz istəkləri ilə deyil, birbaşa hansısa təzyiqlə baş verib.

## Zelenskinin danışıqları pozmaq cəhdləri də diqqətdən yayınmayıb

Mayın 15-də Zelenski Türkiyəyə uçub, lakin o nədənsə, danışıqların başlamalı olduğu İstanbula deyil, Ankaraya uçub. Bunun ardınca da Ukrayna lideri dərhal Rusiya nümayəndə heyəti ilə görüşdən mümkün imtinanı elan edir və bunu hətta "saxta" hesab edir. "Rusların səviyyəsi hələ mənə rəsmi olaraq məlum deyil. Amma gördüyümüzə görə, bu, saxtakarlıq kimi görünür", deyə Zelenski açıq şəkildə bildirib.

Hadisələrin gedişin onu göstərir ki, Ukrayna lideri Türkiyəyə yollansa da görüşmək "həvəsində" olmayıb. Nəinki həvəsində olmayıb, ümumiyyətlə, bacardıqca bu görüşə mane olmağa çalışıb. Maraqlıdır ki, niyə Zelenski mane olmaq üçün dəridən-qabıqdan çıxırdı? Axı onun bu çabaları nəyə lazım idi? Ümumiyyətlə, məqsədinin nədən ibarət olduğu daha böyük sual doğurur. Bütün analizlər onu deməyə əsas verir ki, Zelenski sadəcə olaraq, danışıqları pozmağa cəhd edirdi və bu da bütün dünya ictimaiyyətinin diqqətindən yayınmayıb.

## Rusiya Xarici İşlər Nazirliyinin cavabı özünü çox gözlətməyib

"Saxta" sözünü kim işlədir? Bu sözü Kloun işlədir? Məğlub bu ifadədən istifadə edir? Əsas təhsildən daha çox - elmi dərəcələri, Vətənə xidmətləri olan insanlara münasibətdə naməlum təhsili olan şəxs bu sözləri işlədir?", deyə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova açıq-aşkar və birbaşa olaraq bildirib. Məsələ burasındadır ki, Zaxarovanın dedikləri deyəsən "təsirsiz" olub. Albaniyada keçirilən Avropa Sammiti zamanı da o, yenə ağlına gələni danışıb. "Aydındır ki, İstanbula gələn Rusiya nümayəndə heyəti çox aşağı səviyyədə olub və ora Rusiyada faktiki olaraq qərar verən bir nəfər də daxil olmayıb", deyə Zelenskinin bildirməsi bir çox mətləblərdən xəbər verir.

Bir halda ki, Zelenski məhz Avropa Sammiti zamanı bu şəkildə çıxış edib, deməli, məsələ bəllidir. Bəlli olan odur ki, Ukrayna lideri sadəcə olaraq, özünü avropalılara, Avropa rəsmilərinə "göstərmək" fikrinə düşüb. Avropalılara bir növ nümayişkeranə bunu etməsi isə məsələnin mahiyyəti dərk etmək üçün kifayət edir. Əgər o, bunu avropalıların "xoşuna gəlsin", onu "bəyənsinlər" deyə edirdisə, deməli, bu məsələdə, yəni, Rusiya ilə Ukrayna arasındakı danışıqları pozmağa cəhd edənlərin kim olduğu bəlli olur. Artıq hər kəs yaxşı başa düşür ki, deməli, avropalılar danışıqları pozmağa cəhd edirlərmiş və bu vaxta qədərki mövqelərində zərrə qədər də dəyişiklik olmayıb. Məhz Mariya Zaxarovanın fikirləri ilə Rusiya Xarici İşlər Nazirliyinin cavabı, bu zaman Rusiya XİN-in rəsmi nümayəndəsinin kloun sözünü, eləcə də məğlub ifadəsini işlətməsi özü də deyilənləri təsdiq edir.

## ABŞ prezidenti Trampın mövqeyi və qiymətləndirməsi

Zelenskidən fərqli olaraq, Donald Tramp Rusiya nümayəndə heyətindən kifayət qədər razı qaldığını gizlətməyib. "Cənab prezident, Rusiyanın Türkiyəyə göndərdiyi nümayəndə heyətinin səviyyəsi sizi narahat edirmi?, deyə jurnalistlərin amerikalı liderə ünvanladıqları suala ABŞ prezidentinin cavabı çox aydın şəkildə olub. "Mən heç nədən məyus deyiləm" deyə Tramp cavab verib və bununla heç də Zelenski ilə eyni fikirdə olmadığını birbaşa bəyan edib.

Müxalifət yönümlü ukraynalı jurnalistlər Amerika liderinin fikirlərini Zelenski üçün çox "pis əlamət" kimi şərh ediblər. "Tramp, əlbəttə ki, Zelenskini maksimum dərəcədə aşağıladı. Mən Trampam, o isə Putindir, bəs sən kimsən?", deyə Trampın söylədiklərinə məsələn, ukraynalı jurnalist Anatoli Şariy özünəməxsus şəkildə izah verib. Əslində, "bəs sən kimsən" sualı da səbəbsiz səslənməyib. Dolayısı ilə Zelenskiyə Tramp tərəfindən bildirilir ki, məhz avropalıların təzyiqindən, ən azından təsirindən xəbərdardır və bilir də ki, danışıqları pozmağa cəhd edənlər kimlərdir.

## Danışıqlara mane olmaq üçün Avropadan təxribat

Köhnə Dünyanın öz atmosferi var imiş. Avropalılar danışıqlar prosesinə "qarmaq atmaq" və ya "fırıldaqla" girməyə çalışırlarmış. Xüsusən də Rusiya tərəfi çox gözəl başa düşüb ki, Avropanın vəzifəsi sülhün bağlanmasını sabotaj etmək və bunda Rusiyanı günahlandırmaq olub. Bir növ buna avropalılar çoxdankı fürsət kimi baxıblarmış. Buna görə də Avropa liderləri qeyd-şərtsiz atəşkəs kimi açıq-aşkar qeyri-mümkün tələblərin irəli sürülməsi məqsədi ilə əldən-ayaqdan gedirdilər. Onlar bunu ən sərt, təhqiredici, ultimatum formasında belə təzəhür etdirirdilər. Eyni zamanda, növbəti, artıq ardıcıl olaraq, 17-ci sanksiyalar paketini müzakirə etmək də ön planda dururdu.

"Makron, Starmer, Merz və son illərdə öz siyasi karyeralarını Rusiya ilə hansısa qarşıdurma üzərində qurmağa şalışan bir sıra ölkə liderləri ya açıq, ya da dolayısı ilə bir növ təxribat niyyətində idilər. Belə məlum oldu ki, avropalı siyasətçilər üçün müharibənin başa çatması siyasi iflas demək imiş. Məhz ona görə də danışıqları gecikdirməkdə və hətta birbaşa pozmaqda Zelenskini də dəstəkləyirlər", deyə hərbi ekspert Aleksey Anpiloqov bildirib. Deməli, Ukrayna liderini danışdıranlar var imiş. Belə çıxır ki, Zelenski bu şəkildə çıxış edərsə, deməli, onu avropalılar qızışdırırlar. Daha dəqiq desək, bu, danışıqlara mane olmaq üçün Avropadan təxribat kimi görünür.

## Putinlə görüşmək Trampa niyə lazım idi?

Donald Trampın niyyəti nüfuzunu itirmədən Ukrayna böhranından çıxmaqdır. Məhz bu baxımdan da münaqişəni həll etmək üçün onun Rusiya prezidenti ilə görüşü özünə çox lazımlı görünür. ABŞ dövlət katibi bu barədə açıqlama verərək İstanbuldakı danışıqlardan böyük gözləntilərinin olmadığını bildirib. "Aydındır ki, bu məsələdə irəliləyişə nail olmağın yeganə yolu prezident Tramp və prezident Putin arasında danışıqlardır", deyə ABŞ dövlət katibi Marko Rubionun söylədikləri deyilənləri isbatlayır. Başqa sözlə desək, amerikalılar sanki birbaşa deyirlər ki, Zelenski və onun avropalı müttəfiqləri heç nəyə qərar verə bilməzlər. Məhz elə bu məqamın özü belə bunu deməyə əsas verir ki, amerikalılar da avropalıların danışıqları pozmaq niyyətində olduqlarını qəbul edirlər və danışıqları pozmağa cəhd edənlərin elə avropalılar olduğu qənaətindədirlər.

"Tramp istənilən halda qalibdir, çünki o, indi mübarizənin üzərindədir. Tramp indi əsaslı şəkildə deyir ki, Rusiya və ABŞ arasında bəzi real razılaşmalar əldə oluna bilər və Ukrayna ya onları həyata keçirib az-çox sülh yolu ilə nizamlanma əldə edə bilər, ya da onları həyata keçirməkdən imtina edərək, cəbhədə, döyüş meydanında yekun məğlubiyyət qazanar. Amma çox yaxında hərbi baxımdan təslim olmaqdan imtina edə də bilər", deyə dünyaca məşhur hərbi ekspertlərin əksəriyyəti açıq şəkildə bəyan etməkdədirlər. Hər halda, sülh danışıqlarını pozmaq cəhdlərinə baxmayaraq, prosesə start verilib. Münaqişənin əsas səbəblərini aradan qaldırmaq və real uzunmüddətli sülhə nail olmaq üçün əməli tədbirlərə başlanılıb və Trampın da məhz Putinlə görüşməkdə məqsədi danışıqları pozmağa cəhd edənlərə mane olmaq olub...

***İnam Hacıyev***

# Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib

***Mayın 21-də Türkiyənin Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.***

Konfransa Azərbaycan və Türkiyədən 250-ə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb.

Tədbir Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın və Türkiyənin bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.












Daha sonra Qərbi Azərbaycan həqiqətləri və Qərbi Azərbaycan İcmasının fəaliyyəti, Qərbi azərbaycanlıların ləyaqətli şəkildə geri qayıdışı ilə bağlı Qərbi Azərbaycan Televiziyası tərəfindən hazırlanan film nümayiş etdirilib.

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-nin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb. Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər.

TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən "Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər" mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər. Panellərdən sonra iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Konfransın bağlanış sessiyasında Milli Məclisinin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov, TBMM-in üzvü, Ədalət və İnkişaf Partiyası sədrinin müavini Zafer Sırakaya, Milli Məclisinin deputatı, "Azərbaycan-Türkiyə Evi" İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və TBMM-in üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım çıxış ediblər.

Daha sonra iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.

Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə Qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb. Bildirilib ki, bu faciəvi hadisələr regionun mədəni müxtəlifliyinə və tarixi yaddaşına ciddi zərbə vurub və -hazırda həll edilməmiş ədalətsizlik kimi qalmaqdadır.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışı tarixi ədalətsizliyin aradan qaldırılmasını təmin etməklə yanaşı, Cənubi Qafqazda sabitlik və barışıq üçün mühüm addımdır. Qərbi Azərbaycanda dağıdılmış məscidlərin və digər mədəni abidələrin bərpası, qorunması regional sülh və birgəyaşayışın möhkəmləndirilməsi üçün vacibdir. Mədəni müxtəliflik və barışığa xidmət edən bu işdə beynəlxalq təşkilatların yaxından iştirakı zəruridir.

Sənəddə, həmçinin Ermənistan hökuməti Qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb. Diqqətə çatdırılıb ki, Ermənistan qayıdışı təmin etmək məqsədilə Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoq başlamalı, azərbaycanlıların mədəni irsinin qorumaq və bərpa etmək üçün UNESCO-nun və digər müvafiq qurumların monitorinq missiyalarına icazə verilməli və Qərbi azərbaycanlıların mülkiyyət hüquqlarını təmin etməlidir.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar. Sonda xatirə şəkli çəkdirilib.

# Əziz Ələkbərli: "Qərbi Azərbaycana qayıdış bütün Türk dünyasının məsələsidir"

***Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfransın Ankarada baş tutması Qərbi Azərbaycan həqiqətlərinin və soydaşlarımızın qayıdış hüququnun Türkiyə ictimaiyyətinə çatdırılması yolunda çox mühüm rol oynayacaq. Bu fikirləri AZƏRTAC-a müsahibəsində Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli səsləndirib.***

Mayın 21-də Türkiyə paytaxtında keçirilən "Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi" mövzusunda konfransın əhəmiyyətini vurğulayan Əziz Ələkbərli əmin olduğunu bildirib ki, qardaş Türkiyə bütün sahələrdə olduğu kimi, Qərbi Azərbaycan məsələsində də ölkəmizin yanında olacaq.




Həm erməni zülmündən, həm də sovet rejimindən qaçan çox sayda Qərbi azərbaycanlı soydaşımızın vaxtilə Türkiyəyə köçdüyünü diqqətə çatdıran İcma rəhbəri deyib: "Belə insanların sayı milyonlarladır. Onlar Qərbi Azərbaycana qayıdış ideyasının təbliğində mühüm rol oynaya bilər və bu istiqamətdə aparılan işlərə cəlb olunmalıdır". O bildirib ki, Qərbi Azərbaycan İcması yarandığı gündən bəri qarşısındakı ilk vəzifələrdən biri Qərbi Azərbaycan həqiqətlərini, bu bölgədən müxtəlif dövrlərdə qovulmuş insanların qayıdış hüquqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasıdır.

"Belə böyük tədbirlərin Ankara ilə yanaşı, Türkiyənin başqa şəhərlərində də keçirilməsini planlaşdırırıq. Artıq bu istiqamətdə işlər gedir", - deyə İcma rəhbəri ifadə edib.

O, həmçinin qeyd edib ki, xarici ölkələrdə Qərbi Azərbaycan icmasının nümayəndəliklərinin açılması məsələsi gündəmdədir.

İcma rəhbərinin sözlərinə görə, artıq Avropanın müəyyən ölkələrində nümayəndəlikləri açılıb və fəaliyyət göstərir. "Buna misal kimi Fransa və Niderlandı göstərə bilərəm. Şübhəsiz ki, biz hələ yolun başlanğıcındayıq. Nümayəndəliklər sadəcə Qərbi azərbaycanlıların yaşadıqları ölkələrdə deyil, bütün dövlətlərdə açılmalıdır. Biz bunda maraqlıyıq. Çünki bu, Azərbaycanın ümummilli məsələsidir, bu Türk dünyasının məsələsidir", - deyə Ə. Ələkbərli vurğulayıb.

# Türkiyə, Azərbaycan və Şimali Kipr Türk xalqlarını ortaq dəyərlər birləşdirir

## "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu"

***Mayın 20-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) ev sahibliyi ilə Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyası (UBP) təmsil edən gənclərin iştirakı ilə "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu" mövzusunda konfrans keçirilib. Açılış mərasimində çıxış edən ŞKTC-nin Prezidenti Ersin Tatar Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm prioritet olduğunu bildirərək bu istiqamətdə həyata keçirilən fəaliyyətin əhəmiyyətini qeyd edib. Türkiyə, Azərbaycan və Şimali Kipr Türk xalqlarını ortaq dəyərlərin birləşdirdiyini söyləyən Ersin Tatar konfransın gənclər arasında səmərəli fikir mübadiləsinin aparılması baxımından önəmini nəzərə çatdırıb.***

ŞKTC-nin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstel isə çıxışında üç ölkənin müştərək hədəflərinin reallaşdırılmasında gənclərin rolunu vurğulayıb. O, YAP, AK Parti və UBP arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumunun önəminə toxunaraq hakim partiyaların gənclərini bir araya gətirən "Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi" layihəsinin birgə fəaliyyət və təcrübə mübadiləsinin təşviqi xüsusunda əhəmiyyətini qeyd edib.




Konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, hər üç ölkənin gənclərinin ortaq məqsədlər ətrafında birləşməsi müstəsna əhəmiyyətə malikdir: "Bu gün Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətindən olan gənclərin bir araya gəlməsi liderlərimizin siyasi iradəsinin nəticəsi, partiyalarımız arasındakı səmimi dostluq münasibətlərinin təzahürüdür. Biz bu birliyi yeni ideya və təşəbbüslərlə daha da gücləndirərək gələcəyə daşımalıyıq".

Ulusal Birlik Partiyasının Baş katibi Oğuzhan Hasipoğlu, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan, UBP-nin Gənclik Qollarının təmsilçisi Mahmud Hüdaverdi, Türkiyənin Ədalət və İnkişaf Partiyasının Gənclik Qollarının rəhbəri Yusuf İbiş və Türkiyə Böyük Millət Məclisinin üzvü Zəhranur Aydəmirin də çıxış etdikləri konfrans panel sessiyaları ilə öz işini davam etdirib.












Daha sonra müxtəlif mövzularda təşkil olunan dəyirmi masalarda hakim partiyaların gənclər təşkilatları arasında birgə fəaliyyətin gücləndirilməsi ilə əlaqədar müzakirələr aparılıb. Sonda konfrans iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

***Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvləri ilə "Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin nümayəndələrinin görüşü keçirilib.***

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təşviqi və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasətinin təbliği, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması kimi məsələlərin daim diqqət mərkəzində olduğunu və ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Görüşün əhəmiyyətinə diqqəti cəlb edən Arif Rəhimzadə sözügedən istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb.

"Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin sədri, AMEA-nın müxbir üzvü Sudeyif İmamverdiyev rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında ətraflı məlumat verib. İctimai Birliyin aktual məsələlərlə əlaqədar mühüm layihələr reallaşdırdığını, o cümlədən türk dövlətlərində əlamətdar hadisələrlə bağlı çoxsaylı tədbirlər keçirdiyini, Azərbaycanın bir sıra ali məktəbləri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran S.İmamverdiyev rəhbərlik etdiyi təşkilatın YAP Veteranlar Şurası ilə işbirliyində maraqlı olduğunu bildirib.





Görüşdə YAP Veteranlar Şurasının üzvləri Tahir Məmmədov, Elbay Qasımzadə, Arif Qaraşov, Zərifə Quliyeva, Adilə Abasova, Tahir Rzayev, Şahlar Əsgərov, YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, "Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı" İctimai Birliyinin İdarə Heyətinin üzvü Ramiz Məşədihəsənli, Qadınlar Şurasının sədri Güllü Yoloğlu, təşkilatın nümayəndəsi İbrahim Quliyev çıxış edərək əməkdaşlıq imkanları barədə fikirlərini bildiriblər.

# "Onlardan indi biz həm də ibrət götürməliyik"



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana səfəri Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi sammiti ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, artıq Prezident Macarıstanın baş naziri Viktor Orbanla iki görüş keçirdi: "Bu, ondan xəbər verir ki, iki ölkə arasındakı münasibətlər, həqiqətən də, genişlənir. Onlar yeni-yeni sahələri əhatə edir. Həm də Bakı ilə Budapeşt arasındakı dialoq müntəzəm şəkildə yüksələn xətlə güclənir. Bu, çox vacib bir tədbirdir. Çünki ilk dəfədir, Türk Dövlətləri Təşkilatının Zirvə görüşü Avropa qitəsində keçirilir. Bu ondan xəbər verir ki, Türk birliyi, Türk dün-



yası öz potensialını, yükünü, planlarını, yeni baxış və ideyalarını yavaş-yavaş Qərbə doğru aparır.

Macarıstanın ev sahibliyi etməsi özü də böyük hadisədir. Çünki ilk dəfədir, bu təşkilat Avropa qitəsində öz yüksək görüşünü keçirir. Bu ondan xəbər verir ki, Türk birliyi dünya çapında, Avrasiya məkanında çox vacib yeri tutur. Onun həm də qlobal proseslərdəki iştirakının əmsalları da yüksəlişə doğru dəyişilir.

İlk növbədə bizim daxili birliyimiz vacib rol oynayır. Digər tərəfdən enerji sahəsində, nəqliyyat-kommunikasiya, rəqəmsallaşma, yeni texnologiyalar və sair hamısı ölkələrimizin marağında olan məsələlərdir. Onlarla bağlı ilk növbədə daxili inteqrasiyaya çox böyük ehtiyac var. Daxili ehtiyac dedikdə yəni Türk birliyi çərçivəsində nəzərdə tutulur. Türk birliyi özünü dünyadan təcrid etmir. Burada Azərbaycanın rolu öncüldür. Çünki Azərbaycan özü müstəqil subyekt olaraq necə vacib, dünya birliyinə vacib olan layihələri uğurla həyata keçirib. Burada Bakı-Tbilisi-Qars nəqliyyat xətti var, enerji xətləri var. Cənub-qaz dəhlizi var, onun istehlakçıları əsasən Avropa qitəsində yerləşir. Bu, onu göstərir ki, həm ayrı-ayrılıqda Türk dövlətləri və Azərbaycan burada çox gözəl nümunə göstərir, fəallıq nümayiş etdirirlər. Digər tərəfdən də ortaq şəkildə onlar öz baxışlarını və təklif etdikləri modelləri elə bir tərzdə təqdim edirlər ki, dünya birliyi bundan bəhrələnsin. Bu, sirr deyil ki, Türk birliyinin güclənməsi heç də bütün qütblərin, siyasi qüvvələrin marağında olan məsələ deyil. Hətta bu problemlərlə bağlı qısqanclıq, bədgümanlıq, şübhə də var. Amma bunlar hamısı əbəsdir. Çünki birincisi, Türk birliyi heç kəsə müharibə elan etmir. Türk Dövlətləri Təşkilatı əməkdaşlıq və inteqrasiya təşkilatıdır. Həm də bir soykökə malik ölkələrin, xalqların, onların toplumlarının bir xətdə olmadı deməkdir. Əgər tarixə nəzər salsaq, görərik ki, həqiqətən də, keçmişdə də Türk birliyindən əsasən beynəlxalq topluma ancaq pozitiv vektorlar uzanıb. Düzdür, burada müharibələr də olub. Bunlar hamısı tarixin keşməkeşli məqamlarıdır. Onlardan indi biz həm də ibrət götürülməliyik. Toqquşmalarda yox, əməkdaşlıqda olduqları halda xalqlar, birliklər, qütblər birgə həm inkişaf edirlər, həm də qlobal təhlükəsizliyin dayaqlarını möhkəmləndirirlər. Ona görə, hesab edirəm ki, bu hadisə çox vacib hadisədir. Deyirlər ki, gələcəkdə inkişaf görmək istəyirsinizsə, gərək bu gündən inkişafa başlayasınız".

"Belə tədbirlərdə ilk növbədə bir çox məsələlərin həlli həm də ev sahibinin mövqeyindən onun baxış və yanaşmalarından asılıdır. Macarıstan, xüsusilə də, onun baş naziri Viktor Orban həddindən artıq nikbin, işgüzar, qətiyyətli və dəmir iradəyə malik bir dövlət xadimi, siyasətçidir. O, dəfələrlə rəsmi Brüsselə öz narazılığını bildirib. Şuşaya gəldi. Bu, Avropada birmənalı qarşılanmamışdı. Çinə getdi, bu da Avropada birmənalı qarşılanmadı. Moskvaya Putinlə görüşə getdi, bu da birmənalı qarşılanmadı. Bütün əməl, baxışları, sözləri ilə Viktor Orban bildirdi ki, ölkəsinin suveren siyasətinin davamçısıdır. Öz xalqı, ölkəsi üçün nə vacibdirsə, onu etməyə həmişə can atır. Eləcə də, onun marağında olan odur ki, Türk birliyində Macarıstanın yeri möhkəm olsun, oynadığı rol daha effektiv və rasional olsun. Nəhayət, bütün ölkələrlə ayrı-ayrılıqda dialoq durmadan inkişaf etsin. Bunun üçün zəmin, sorğu var. Bu sorğular da xalqlardan, toplumlardan irəli gəlir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "OPEC+ təşkilatı sabitliyinin təmin olunmasında mühüm rol oynayır"




## *EKSPERT FİKRİ*

"OPEC+ (Neft İxrac edən Ölkələr Təşkilatı və ona qoşulan qeyri-üzv ölkələr) dünya neft bazarında təchizat və tələb arasında tarazlığı təmin etməyə çalışan beynəlxalq bir platformadır. Bu birlik neftin qiymətinin kəskin şəkildə aşağı düşdüyü dövrlərdə xüsusilə aktiv fəaliyyət göstərir. Bunun əsas səbəbi, azalan qlobal tələbat fonunda neftin qiymətində baş verə biləcək ucuzlaşmanın qarşısını almaqdır".

Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, bu məqsədlə, OPEC+ ölkələri arasında ən səmərəli vasitə hasilat həcmlərinin mütənasib şəkildə azaldılması hesab olunur. Tarixi təcrübə göstərir ki, bu təşkilat heç vaxt hasilatın artırılması təşəbbüsü ilə çıxış etməmiş, əksinə qiymətlərin sabitləşdirilməsi və neft ixrac edən ölkələrin maraqlarının qorunması məqsədilə hasilatın məhdudlaşdırılmasına üstünlük vermişdir.

Neft hasilatının azaldılması ilə bağlı qərarlar OPEC+ üzv ölkələri arasında razılaşdırılmış öhdəliklər əsasında qəbul olunur. Bu öhdəliklər yerinə yetirildikdə, dünya bazarına çıxarılan ümumi neft təchizatı həcmi azalır ki, bu da nəticə etibarilə neftin bazar qiymətində artıma səbəb olur. Beləliklə, OPEC+ təşkilatının fəaliyyəti dünya neft bazarının sabitliyinin təmin olunmasında və qiymət dalğalanmalarının qarşısının alınmasında mühüm rol oynayır".

Ekspert həmçinin bildirib ki, COVID-19 pandemiyası dövründə və Rusiya-Ukrayna müharibəsinin başlanğıc mərhələsində müşahidə edildiyi kimi, qlobal enerji bazarında baş verən kəskin dəyişikliklər OPEC+ təşkilatının fəaliyyətini daha da aktuallaşdırmışdı: "Həmin dövrlərdə neft tələbatında ciddi azalmalar baş verdiyindən, OPEC+ ölkələri arasında hasilatın məhdudlaşdırılması ilə bağlı koordinasiya edilmiş qərarlar qəbul olunmuş və bu qərarlar bazar qiymətlərinə bilavasitə təsir etmişdi. Lakin hazırkı mərhələdə vəziyyət müəyyən dərəcədə fərqlidir. Beynəlxalq enerji bazarlarında müəyyən streslərin və qeyri-müəyyənliklərin mövcud olmasına baxmayaraq, OPEC+ tərəfindən keçirilən iclaslara və müzakirələrə rəğmən, qəbul edilən qərarların əvvəlki dövrlərlə müqayisədə bazara təsir gücü nisbətən zəifləmişdir. Bu, bir neçə amillə izah olunur.

Birincisi, hazırkı şəraitdə OPEC+ ölkələrinin hər birinin fərdi iqtisadi çətinlikləri mövcuddur və onlar üçün neft hasilatının və ixracının azaldılması daha az cəlbedici görünür. İkincisi, qlobal neft tələbatında kəskin azalma müşahidə edilmir, bu isə hasilatın kəskin məhdudlaşdırılmasını zəruri etmir. Üçüncüsü, Rusiya kimi əsas istehsalçı ölkəyə tətbiq edilən sanksiyalar və qiymət tavanları bazarda qeyri-ənənəvi konjonktura formalaşdırır və bu da OPEC+ daxilində koordinasiyanı çətinləşdirir. Nəticə etibarilə, mövcud geosiyasi və iqtisadi reallıqlar fonunda OPEC+ təşkilatının bu mərhələdə qəbul etdiyi qərarların bazar qiymətlərinə əvvəlki qədər güclü təsir göstərməsi ehtimalı azdır. Bu səbəbdən təşkilatın hazırkı fəaliyyəti daha çox simvolik xarakter daşıyır və bazar iştirakçıları tərəfindən məhdud təsirli addımlar kimi qiymətləndirilir"- deyə o əlavə edib.

***Xeyrənsə Piriyeva***

# “28 may müstəqilliyimizin tarixində ən şərəfli zirvədir”

**“Hər bir qaranlıq gecənin işığı bir səhəri olur. Azərbaycan xalqının tarixində bu qaranlıq gecə 1918-ci ilin Mart soyqırımı, bu işığı səhər isə həmin ilin 28 mayıdır. 28 may müstəqilliyimizin tarixində ən şərəfli zirvədir. Bu bir mənalı belədir. Riyaziyyatçılar buna aksioma deyirlər”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.**

O bildirib ki, hər xalqa müstəqillik nəsib olmur: ”Sayı bizlərdən on dəfələrlə çox olan xalqlar var, ancaq onların çoxunun müstəqilliyi yoxdur. Xoşbəxtik ki,dünyanın 200-ə qədər müstəqil dövlərləri sırasında biz də varıq. Dünyanın bir çox xalqlarının tarixində zirvələr mövcuddur. Anadolu türkləri üçün 29 oktyabr, fransızlar üçün Bastiliyanın alınması, almanlar üçün XIX əsrin ikinci yarısında vahid dövlət halında birləşmə, amerikanlar üçün 4 iyul ən böyük tarixi hadisədir. Allah-Təala belə bir xoşbəxt günü bizim xalqımıza da nəsib etmişdir. Bu xoşbəxt tarixin başlanığıcı 1918-ci il mayın 28-dir. Vaxtilə K.Marks yazırdı ki, qədim Yunanıstan olmasaydı, qədim Roma olmazdı, qədim Roma olmasaydı, müasir Avropa olmazdı. M.Ə.Rəsulzadə isə yazırdı: ”I cahan savaşı olmasaydı, fevral burjua inqilabı olmazdı, fevral burjua inqilabı olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti olmazdı”. 23 ay fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyəti zaman məhdudluğuna baxmayaraq, aşağıdakıları həyata keçirməyə müvəffəq oldu:



* 1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə ilk iclasını keçirdi və 6 maddədən ibarət ”İstiqlal bəyannaməsi”ni qəbul etdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti yarandı.

* Coğrafi məfhum olan Azərbaycan ifadəsini siyasi məfhuma çevirdi. Bu vaxta qədər müxtəlif adlar altında təsbit olunan bu ərazi Azərbaycan, dövlət isə Azərbaycan Xalq Cümhuriyyəti adlanmağa başladı.

* Bakı şəhəri öz tarixində ilk dəfə olaraq bütün Azərbaycanın paytaxtına çevrildi.

* 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə Batum müqaviləsi imzalandı.

* 1918-ci il iyunun 21-də Azərbaycanın ilk dövlət rəmzlərini qəbul etdi.

* İyunun 21-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq (Osmanlı bayrağına oxşar) qəbul edildi; a) Noyabrın 9-da hazırki üçrəngli bayrağımız və Səkkizguşəli ulduz qəbul edildi;

* 1918-ci il iyunun 26-da Azərbaycan Milli Ordusunun yaradılması haqqında qərar qəbul etdi.

* 1918-ci il iyunun 27-də Azərbaycan (türk) dilinin dövlət dili elan olunması haqqında qərar qəbul etdi.

* 1918-ci il iyunun 27-dən - iyulun 1-dək Qaraməryəm yaxınlığında Qafqaz İslam Ordusu Korqanovun rəhbərlik etdiyi Bakı Soeti qüvvəllərini darmadağın etdi.

* 1918-ci il iyulun 15-də erməni-daşnak qüvvələri tərəfindən türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımları təhqiq etmək və tarixi həqiqətləri dünyaya çatdırmaq üçün Fövqəladə Təhqiqat Komissiyası yaradıldı.

* 1918-ci il iyulun 20-də Qafqaz İslam Ordusu Şamaxını Bakı soveti qüvvəllərindən azad etdi.

* 1918-ci il iyulun 30-da Yelizavetpol şəhəri Gəncə, Qaryagin Cəbrayıl adlandırıldı.

* 1918-ci il iyulun 31-də Şaumyan başda olmaqla Bakı Soveti qüvvələri istefa verdi.

* 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu Bakı şəhərini Sentrokaspi qüvvələrindən azad etdi.

* 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyskinin rəhbərlik etdiyi Milli hökumət Bakı şəhərinə daxil oldu. Bakı Azərbaycanın paytaxtına çevrildi.

* 1918-ci il noyabrın 1-də Hərbi Nazirlik yaradıldı.

* 1918-ci ilin noyabrında Azərbaycan Məhkəmə Palatası təşkil edildi.

* 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamenti təsis edildi.

* Azərbaycan Parlamentində türk-müsəlman əhalisinə - 80, ermənilərə 21, ruslara 10, almanlara 1, yəhudilərə 1, gürcülərə 1, polyaklara 1 yer ayrıldı.Parlamentin demokratik tərkibi hətta bugünkü Avropa Şurasının da təəccübləndirir.




o Parlament 17 ay ərzində 145 iclas keçirmiş, müzakirəsinə 270-dən çox qanun lahiyəsi çıxarılmış, onlardan 230-u qəbul olunmuşdur.

* Parlamentdə 11 fraksiya və 11 komissiya fəaliyyət göstərirdi.

* Azərbaycanda hakimiyyət bölgüsü aparıldı:1.Qanunverici, 2.İcraedici 3.Məhkəmə hakimiyyəti.

* 1918-ci ilin dekabrında Azərbaycan parlamenti Bakı şəhərinin azad edilməsində şəhid olmuş türk və Azərbaycan əsgərlərinin şərəfinə Bakının ən hündür yerində abidənin ucaldılması haqqında qərar qəbul etdi.

* 1918-ci ilin dekabrında milli valyuta olan Bakı bonu tədavülə buraxıldı.

* 1918-ci il dekabrın 28-də parlamentdə Ə.Topçubaşovun başçılığı ilə Paris Sülh Konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul edildi.

* 1918-ci il dekabrın 26-da general Tomson Fətəli xan Xoyskinin başçılıq etdiyi hökuməti tanıdığını bəyan etdi.

* 1919-cu ilin yanvarında Qarabağda erməni separatçılarının qanunsuz hərəkətlərinə son qoymaq üçün Qarabağ general-qubernatorluğu yaradıldı. Fevralda Xosrov bəy Sultanov qubernator təyin olundu.

* 1919-cu ilin fevralında ermənilər tərəfindən Naxçıvana edilən hücumların qarşısını almaq üçün Naxçıvan general-qubernatorluğu yaradıldı.

* 1919-cu il martın 3-də Azərbaycan Teleqraf Agentliyi yaradıldı.

* 1919-cu il martın 21-də Əlifba islahat komissiyası yaradıldı. Məqsəd latın əlifbasına keçməkdən ibarət idi.

* 1919-cu ilin martından Novruz bayramı dövlət səviyyəsində qeyd olundu.

* 1919 və 1920-ci illərdə 31 mart dövlət səviyyəsində milli matəm günü kimi qeyd olundu.

* 1919-cu ilin martında ”Əksinqilabla mübarizə təşkilatı” adı altında Milli təhlükəsizlik xidməti yaradıldı.

* 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yaradıldı.

* 1919-cu il iyunun 15-də Denikin təhlükəsinə qarşı Gürcüstanla hərbi pakt imzalandı.

* 1919-cu il iyunun 28-də Böyük Britaniya hökuməti ingilis ordusunun Qafqazdan çıxarılacağı haqqında Paris sülh konfransına rəsmi məlumat verdi.

* 1919-cu il iyulun 21-də parlament Azərbaycan Respublikasının Müəssislər Məclisinə seçkilər haqqında əsasnaməni təsdiq etdi. Əsasnaməyə görə seçkilərdə qadın və kişi bərabərliyi təsbit olundu.

* 1919-cu il avqustun 11-də Parlament Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Yəni, rəngindən, irqindən, cinsindən asılı olmayaraq Azərbaycan ərazisində yaşayan bütün millətlərin nümayəndələri qanun qarşısında bərabər elan olundu.

* 1919-cu il avqustun 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması barədə polkovnik V.Haskelin bəyanatı elan edildi və amerikalı polkovnik Edmund Delli bu zonaya qubernator təyin olundu. Lakin Azərbaycan hökumətinin ciddi müqaviməti və Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikalılar öz niyyətlərini reallaşdıra bilmədilər.

* 1919-cu il avqustun 20-dən sentyabrın 2-nə kimi Azərbaycan müəllimlərinin birinci qurultayı keçirildi.

* 1919-cu il avqustun 22-də Dağlıq Qarabağ ermənləri Azərbaycan hökuməti qarşısında 26 bənddən ibarət öhdəlik götürdülər.

* 1919-cu il avqustun 23-də Qaçqın və köçkünlərlə bağlı komissiya yaradıldı.

* Hökumət qaçqın düşən əhali ilə bağlı parlament və hökumət səviyyəsində 10 qərar və qanun qəbul etdi.

* 1919-cu il avqustun 25-də ingilis qüvvələri Bakını tərk etdilər.

* 1919-cu ilin avqustunda Xəzər hərbi dəniz donanması yaradıldı.

* 1919-cu il sentyabrın 1-də Azərbaycan parlamenti 100 nəfər azərbaycanlı tələbənin xaricə göndərilməsi haqqında qanun qəbul etdi.

* 1919-cu il sentyabrın 1-də Azərbaycan Parlamenti Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında qanun qəbul etdi. Dərslər noyabrın 15-də başladı.

* 1919-cu ilin yayında Azərbaycan hökuməti maliyyə çətinliklərinə baxmayaraq, Dağıstan Dağlılar Respublikasına 50 milyon manat həcmində yardım göstərdi.

* 1919-cu ilin avqustunda Lənkəranda qiyamçı qüvvələr darmadağın edilərək bölgədə Cümhuriyyətin hakimiyyəti bərpa olundu.

* 1919-cu il sentyabrın 3-də Lənkəran bölgəsindəki rus hərbi qüvvələri tərksilah edildi.

* 1919-cu il sentyabrın 30-da Dövlət Bankı təşkil olundu.

* 1919-cu ilin oktyabrında mətbuatda senzura ləğv olundu.

* 1919-cu il noyabrın 23-də Tiflisdə Azərbaycan-Ermənistan sazişi imzalandı.

* 1919-cu ilin dekabrında ”İstiqlal” muzeyi açıldı.

* 1919-cu ildə Bakı neftini dünya bazarına çıxarmq üçün Bakı-Batum neft kəməri bərpa edilərək istifadəyə verildi.

* 1919-cu ilin sonunda İstehkamçılar məktəbi, Hərbi dəmiryolçular məktəbi, Hərbi feldşer məktəbi və Hərbiyyə məktəbi açıldı.

* Milli hökumət Gəncədə Nizami məqbərəsinin tikintisinə 500 min manat vəsait ayırdı. Amma məqbərəni tikmək üçün vaxt çatmadı.

* 1920-ci il yanvarın 11-də Versalda Azərbaycan Paris Sülh Konfransının Ali Şurası tərəfindən de-fakto tanındı.

* 1920-ci il yanvarın 14-də Azərbaycanın Paris Sülh konfransının Ali Şurası tərəfindən de-fakto tanınması şərəfinə Təzəpir məscidində dualar oxundu. Parlamentin təntənəli iclası keçirildi, Hürriyyət meydanında Milli ordunun rəsmi keçidi oldu.

* 1920-ci il martın 20-də sovet Rusiyası ilə ticarət müqaviləsi imzalandı. Lakin Rusiya bu müqaviləyə riayət etmədi.

* 1920-ci il martın 20-də Azərbaycan Xalq Cümhuriyyəti İran tərəfindən de-fakto və de-yure tanındı.

* 1920-ci il martın 20-də İranla bağlanmış müqaviləyə əsasən Tehranda səfirlik, Təbrizdə baş konsulluq, Rəştdə konsulluq, Ərdəbildə, Məşhəddə vitse-konsulluq, Xoy və Əhərdə konsul agentlikləri yaradıldı.

* 1920-ci ilin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti ordusunun sayı 40 minə çatırdı. Bunun 30 mini piyada, 10 mini isə suvari idi.

* Bakı-Culfa dəmir yolu inşa edilərək istifadəyə verildi.

* Kür çayı üzərində körpü salındı.

1920-ci il aprelin 27-də Azərbaycan parlamentinin sonuncu - 145-ci iclası axşam saat 20.45-də başladı və 23.25-dək davam etdi.

1920-ci il aprelin 27-də Parlament səs çoxluğu ilə 7 şərtlə hakimiyyətin kommunistlərə verilməsi haqqında qərar qəbul etdi.

1920-ci ilin aprel işğalı Azərbaycan Xalq Cümhuriyyətinə aşağıdakıları həyata keçirməyə imkan vermədi:

* Bakı neftini dünya bazarına tam gücü ilə çıxara bilmədi.1994-cü ildə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında ”Əsrin müqaviləsi” imzalandı. Bakı nefti dünya bazarına Bakı-Ceyhan Beynəlxalq neft kəməri vasitəsilə çıxarıldı.

* Azərbaycanda ali hərbi məktəb açıa bilmədi. Müstəqilliyimizin yenidən bərpasından sonra çoxlu sayda ali hərbi məktəblər açıldı.

* Azərbaycan Konstitusiyasını qəbul edə bilmədi. 1995-ci ilin noyabrında Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi.

* Parlament seçkilərini keçirə bilmədi.1995-ci ilin noyabrında parlament seçkiləri keçirildi.

* Ərəb əlifbasından Latın qrafikalı əlifbaya keçidi təmin edə bilmədi. Müstəqilliyin yenidən bərpası dövründə latın qrafikalı əlifbaya keçildi.

* Aqrar məsələni, yəni torpaq məsələsini həll edə bilmədi. 1996-cı ildə aqrar məsələ həll olundu.

* Qafqaz İslam Ordusunun şərəfinə abidə qoya bilmədi. 2000-ci ildə Şəhidlər xiyabanında bu əzəmətli abidənin açılışı oldu.

* Ermənistan və sovet Rusiyasının günahı üzündən həmin dövlətlərlə qonşuluq münasibətlərini qura bilmədi. Bu gün də Ermənistanın təcavüzkar siyasəti nəticəsində onunla qonşuluq münasibətlərini qurmaq mümkün olmamışdır. Hazırda Rusiya Federasiyası ilə bütün istiqamətlərdə səmimi münasibətlər, o cümlədən müttəfiqlik münasibətlərimiz mövcuddur.

XX əsrdə xalqımız üç Respublika yaşadı. Birinci Respublikanın ömrü qısa,amma ərazisi böyük idi.Birincini Azərbaycanın milli-demokratik ziyalıları qurdular,xalq da onları müdafiə etdi. İkinci Respublikanın ömrü birinciyə nisbətən uzun oldu, amma xeyli ərazimizi əlimizdən aldılar. İkinci Respublika birinci Respublika dövründə qazanılanların üzərində xətt çəkdi”.

”İkinci Respublika kənar müdaxilə nəticəsində quruldu. Bu Respublika müstəqil yox, müttəfiq adlandı. Üçüncü Respublika 1991-ci ildə quruldu. Üçüncü Respublika özünü birinci Respublikanın siyasi varisi elan etdi. Bu Respublika xalqın tələbi və iradəsinin nəticəsi kimi yarandı. 30 ilə yaxındır ki, bu Respublika yaşayır, yaradır və dünyanın ən nüfuzlu təşkilatlarının üzvüdür. Azərbaycan Respublikası Birinci Respublikanın qaldırdığı üç rəngli bayrağını Azərbaycanın suveren ərazisində həmişəlik dalğalanması üçün bütün istiqamətlərdə mübarizəsini davam etdirir. 2016-cı ilin Aprel döyüşləri bütün dünyaya sübüt etdi ki, Azərbaycanın öz tarixi torpaqlarını azad etmək üçün güclü ordusu,ən müasir silahları ,qəhrəman dövlət başçısı başda olmaqla xalqla hakimiyyətin sarsılmaz birliyi mövcuddur. Aprel döyüşləri göstərdi ki, düşmən ordusu haqqında yazılanlar uydurmadan başqa bir şey deyildir. Vətənini sevən, onun üçün canını verməyə hazır Azərbaycan əsgəri, illər idi ki, Ali Baş Komandanın əmrini həsrətlə gözləyirdi.Ali Baş Komandan siyasi qərarını qəbul etdi,17 il idi ki,Vətəni qorumaq üçün yetişdirdiyi ƏSGƏRİ 44 gün ərzində düşməni darmadağın etdi. Düşmənin havadarlarının etiraz və təzyiqləri heç bir nəticə vermədi. Vətən torpağı üçün ölüm-dirim müharibəsinə girən Azərbaycan əsgərini heç bir güc saxlaya bilməzdi və saxlaya bilmədi. Düşmən danışıqsız kapitulyasiya aktını imzaladı. İllərlə düşmən işğalı altında qalan torpaqlarımız azad olundu. Cümhuriyyətin əmanəti üçrəngli bayrağımız hazırda Azərbaycanın bütün bölgələrində şərəflə dalğalanır. Əvvəlki illərdən fərqli olaraq 2021-ci ildən ”Müstəqillik günü”nü qalib ölkənin vətəndaşları kimi qeyd edirik. Bundan böyük xoşbəxtlik nə ola bilər?” - deyə o, ələvə edib.

***Söylü Ağazadə***

# Rusiya-Ukrayna danışıqları və nəticə

## Liderlərin İstanbulda olmaması danışıqların əhatə dairəsini daraldıb

***Rusiya və Ukrayna arasında birbaşa danışıqların üç ildən artıq müddətdən sonra bərpa olunması ikitərəfli münasibətlərdə böyük dəyişikliklərin başlanmasından xəbər verir. Bununla belə, əsl sıçrayış hələ çox uzaqdadır, ölkələr arasında parçalanma çox dərindir. Gözləntilərin aşağı olmasına baxmayaraq, xüsusən də Rusiya nümayəndə heyətinin tərkibinin açıqlanmasından sonra Türkiyənin potensial vasitəçi kimi qayıtması və ABŞ-ın göstərdiyi fəal siyasi və diplomatik dəstəyi nəzərə alaraq, bu yeni raund beynəlxalq ictimaiyyətdə böyük maraq doğurur.***

Məqalənin məqsədi danışıqların hazırkı vəziyyətinin sistematik təhlilini təqdim etmək, yaxından izlədiyimiz iştirakçı tərəflərin mövqelərini, habelə xarici aktorların rolunu və hadisələrin necə inkişaf edəcəyinə dair mümkün ssenariləri öyrənməkdir. Danışıqların formatı və nümayəndə heyətlərinin tərkibindən başlayaq. Putinin 2022-ci il İstanbul danışıqlarında Rusiya nümayəndə heyətinə başçılıq edən və qərar qəbul edən şəxs olmayan Vladimir Medinskinin başçılıq etdiyi orta səviyyəli nümayəndə heyətini göndərmək qərarına gələrək, həmişəki kimi hamını təəccübləndirdi. Rusiya nümayəndə heyətinə xarici işlər nazirinin müavini Mixail Qaluzin, müdafiə nazirinin müavini Aleksandr Fomin və Rusiya Silahlı Qüvvələri Baş Qərargahının Baş Kəşfiyyat İdarəsinin rəisi İqor Kostyukov daxil idi.

Rusiya prezidenti Vladimir Putin İstanbulda danışıqlara şəxsən gəlməkdən imtina etdi, bu, sürpriz olmadı. Amma, Kremlin siyasi eskalasiya olmadan çevik qalmaq istəyi tərəqqi imkanlarını məhdudlaşdırdı. Ukraynaya gəlincə, danışıqlar ərəfəsində şəxsən Ankaraya gələn prezident Zelenskinin göstərişi ilə işləyən bir qrup siyasi və diplomatik müşavir göndərildi. Rusiya nümayəndə heyətinin tərkibini öyrənən Ukrayna tərəfi yeganə müzakirə mövzusunun 30 günlük atəşkəs olduğunu vurğulayaraq, Krımın statusu və ya Ukraynanın NATO-ya daxil olması kimi mövzuları araşdırmaqdan imtina edib. Prezident Rəcəb Tayyib Ərdoğanın təmsil olunduğu Türkiyə təşkilatçı və potensial vasitəçi kimi çıxış edib. Ankara bu addımı ilə nisbi neytrallığı qoruyaraq, münaqişənin heç bir tərəfi ilə əlaqələri pozmamaqla beynəlxalq nüfuzunu gücləndirməyə çalışır. ABŞ-ı dövlət katibi Marko Rubio, Stiv Vitkoff və Keyt Kelloq təmsil edib. Rusiya lideri Vladimir Putin Ukrayna ilə danışıqlar üçün oraya getməkdən imtina etdikdən sonra prezident Tramp İstanbula səfərini ləğv edib, lakin atəşkəs təklifini qətiyyətlə dəstəklədiyini və Kiyevlə koordinasiyada işlədiyini bildirib.

### Bəs, tərəflərin mövqeləri və əsas fikir ayrılıqları nədən ibarətdir?

Moskva heç bir ilkin şərt olmadan danışıqların aparılmasında israrlıdır və hesab edir ki, siyasi və hərbi, o cümlədən ərazi məsələləri hərtərəfli müzakirə olunmalıdır. Rusiya əmindir ki, Ukraynadakı münaqişə uzun sürəcək və səbir, hazırlıq və diqqətli planlaşdırma tələb edən Qərblə daha geniş qarşıdurmanın bir hissəsi kimi nəzərdən keçirilməlidir, ona görə də onun tələblərinə təkcə Kiyevdən deyil, həm də Vaşinqtondan cavab gözləyir. Kiyev öz növbəsində danışıqların əhatə dairəsini daraltmağa çalışır, diqqəti yalnız atəşkəs tələbinə yönəldir. Ukrayna hakimiyyətinə görə, beynəlxalq hüquq nöqteyi-nəzərindən Rusiya təcavüzkar dövlətdir. Bu mövqe, şübhəsiz ki, daxili mülahizələr tərəfindən diktə olunur. Zelenskinin barışmağa hazır olduğunu fərz etsək belə, o, millətçilərdən və əsasən anti-Rusiyaya çevrilmiş ictimai rəydən qorxur. Üstəlik, onun mövqeyi ABŞ-ın dəstəyi ilə sıx bağlıdır. ABŞ öz növbəsində atəşkəs təklifini humanitar atəşkəsin təmin edilməsinə və münaqişənin gərginliyinin azaldılmasına yönəlmiş taktiki ad-



dım kimi dəstəkləyir ki, bu da Trampa özünü "sülhməramlı" kimi göstərməyə və Yaxın Şərq turundan sonra son uğurlarına yeni nailiyyətlər əlavə etməyə imkan verəcək.

### Türkiyə və ABŞ-ın roluna qısa qiymət

Türkiyə həm Moskva, həm də Kiyevlə sabit iqtisadi, ticarət və ən əsası diplomatik əlaqələr saxlayan azsaylı ölkələrdən biridir, lakin danışıqların gedişatını dəyişmək üçün onun hərbi və ya maliyyə rıçaqları yoxdur. Lakin danışıqlar üçün platforma təmin edə bilməsi onun mötədil vasitəçi və regional oyunçu kimi imicini yaxşılaşdırır. Birləşmiş Ştatlar, xüsusən də, Rusiya-Ukrayna münaqişəsinə xüsusi əhəmiyyət verməyən Tramp administrasiyası dövründə, ilk növbədə, daxili və seçki mülahizələrindən irəli gəlir. Yüksək səviyyəli Amerika nümayəndə heyətinin iştirakı simvolik əhəmiyyət kəsb edir, lakin xüsusilə Putin və Trampın bu danışıqlarda şəxsən iştirak etməkdən imtina etməsini nəzərə alsaq, danışıqlar masası arxasında heç bir real təkan vermir.

### Mümkün ssenarilər hansılardır?

Birincisi: bütün proses uğursuzluqla nəticələnir, yeni danışıqlar heç nəyə gətirib çıxarmır. Mövqelərin dərin bölünməsini və aşkar fikir ayrılığını, eləcə də tam etibarsızlığı və siyasi proqramlar arasında uyğunsuzluğu nəzərə alsaq, bu, danışıqların ən çox ehtimal olunan nəticəsidir. Bundan əlavə, yüksək səviyyəli liderlərin və qərar qəbul edənlərin olmaması nəzərəçarpacaq nəticələr əldə etmək şansını əhəmiyyətli dərəcədə azaldır.

İkincisi: müvəqqəti sükunət. ABŞ və Türkiyənin təzyiqi altında qısamüddətli atəşkəslə bağlı məhdud razılaşma əldə oluna bilərdi ki, Putin də Trampla münasibətləri gərginləşdirməmək və Ərdoğanı yöndəmsiz vəziyyətə salmamaq üçün razılaşacaq. Amma bu ssenari - reallaşarsa - strateji deyil, daha çox taktiki olaraq qalacaq.

Üçüncüsü: daimi danışıqlar prosesinin başlanması. İstanbul görüşü Çin, Aİ və ya ABŞ kimi beynəlxalq oyunçuların iştirak etdiyi daha geniş proses üçün əsas ola bilər, lakin indiki şərtlər belə bir strukturun yaradılması üçün hələ də uyğun deyil. Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, İstanbuldakı görüş danışıqlar prosesinin canlandırılması istiqamətində simvolik addımdır, lakin bu, real irəliləyişə nail olmaq üçün kifayət deyil. Liderlərin, xüsusən də Putinin olmaması danışıqların əhatə dairəsini daraldır, baxışların və mövqelərin kəskin qütbləşməsi uğur şanslarını azaldır.

### Ticarət dövriyyəsinin hədəfi - 100 milyard dollar

Türkiyə Rusiya ilə ticarət dövriyyəsini 100 milyard dollara çatdırmağı hədəfləyir. Məqalədə qeyd olunur ki, Ukrayna üzrə danışıqlarda irəliləyiş əldə olunarsa, bu məqsəd daha da yaxınlaşacaq. Nəticələr müsbət olarsa, Türkiyə və Rusiya iki il ərzində hədəf göstəriciyə nail ola biləcək. Türkiyənin Xarici İqtisadi Əlaqələr Şurası (XİƏŞ) yanında Türkiyə-Rusiya İş Şurasının rəhbəri İzzət Ekmekçibaşı bəyan edib ki, İstanbulda Rusiya ilə Ukrayna arasında aparılan danışıqlar müsbət nəticələnərsə, Türkiyə və Rusiya iki il ərzində 100 milyard dollarlıq hədəf ticarət dövriyyəsinə nail ola biləcəklər.

İzzət Ekmekçibaşının Anadolu agentliyinə verdiyi məlumata görə, XİƏŞ forumda 6 türk şirkəti ilə təmsil olunur. Türkiyə-Rusiya iqtisadi əlaqələrinə də toxunan Ekmekçibaşı qarşılıqlı ticarət dövriyyəsinin 100 milyard dollara çatdırılması hədəfini xatırladıb. Onun sözlərinə görə, Rusiya neft-kimya və neft emalı sahələrində xüsusilə fəaldır və burada türk şirkətləri sərmayə qoyur, avtomobil sənayesi və əlaqəli sənayelərlə də maraqlanır.

Ekmekçibaşı qeyd edib ki, əvvəllər oxşar tədbirlərdə ağac emalı sənayesindən də iştirakçılar təmsil olunurdu. "Ümid edirik ki, gələcək forumlarda türk şirkətlərinin sayı artacaq", - deyə o, sözlərinə davam edib. "Bəzi şirkətlərimiz Rusiyaya qarşı sanksiyalara görə hələ də Rusiya bazarına girməkdən çəkinir. Bununla belə, İstanbulda başlayan sülh danışıqlarına çox nikbin baxırıq. İstənilən irəliləyişə nail ola bilsək, Türkiyə ilə Rusiya arasında münasibətlər yeni səviyyəyə qalxacaq və biz prezidentimizin qoyduğu 100 milyard dollarlıq hədəfə yaxınlaşacağıq. 2024-cü ilin sonuna kimi iki ölkə arasında ticarət dövriyyəsi əlverişli şərtlər daxilində 3 milyard dollara çatacağına əminəm. iki il ərzində biz 100 milyard dollara çatacağıq - bizim belə potensialımız var".

### Ukrayna münaqişəsində İstanbul dönüşü

ABŞ və NATO Ukraynanı müharibəyə sövq etməyə davam edərkən, Rusiya sülhə gedən yol təklif edir. Lakin imperialist güclər danışıqlarda maraqlı deyil: onlara detente yox, silah korporasiyalarını qidalandırmaq üçün sonsuz münaqişə lazımdır. Bu gün dünyanın yenidən bölünməsi üçün davam edən mübarizədə Suriya mühüm bir nöqtə idi. Qərb imperialist dövlətləri ilə Rusiya arasında vəkil müharibəsi təxminən 13 il davam etdi. 2024-cü il dekabrın 8-i ərəfəsində Suriyada vəziyyətin "dalan" kimi qiymətləndirilməyə başladığı anda Əsəd rejimi devrildi və Bəşər Rusiyaya qaçdı. Beləliklə, qüvvələr nisbəti Qərbə doğru dəyişdi. Bunun kulminasiya nöqtəsi ABŞ prezidenti Donald Trampla Suriya dövlətinin müvəqqəti rəhbəri əl-Culani (Əhməd əl-Şara) arasında üç gün əvvəl Ər-Riyadda keçirilən görüş olub. Halbuki, ABŞ-da onun tutulması üçün on milyon dollar mükafat təklif edilmişdi. Qərbin Suriyadakı dəyişikliyi özü ilə regional baxımdan bir çox dəyişiklikləri də gətirdi ki, biz bunu indi birlikdə görürük. İndi göründüyü kimi, tərəzi Rusiyanın xeyrinə fırlanan Ukrayna münaqişəsində dalana dirənib. Demək olar ki, Ukrayna münaqişəsinə son qoymaq üçün başlayan danışıqlar - və bu, Trampın ən mühüm seçki vədlərindən biridir - müəyyən yetkinliyə çatıb. Vacib göstəricilərdən biri də İstanbulda Rusiya və Ukrayna tərəfləri arasında birbaşa görüş təşkil etmək cəhdi olub. Zelenski Rusiya lideri Putini İstanbula dəvət edərək, onun qismən bağlı qapılar arxasında əldə olunan razılaşmanın detallarını müzakirə etməyə hazır olduğunu bildirib. Eyni zamanda Yaxın Şərqə səfər edən Tramp yardım əlaməti olaraq İstanbul üçün kurs təyin edə biləcəyini və bunun konkret məsələlərdə fikir ayrılıqlarının mümkün həllinə işarə olduğunu bildirib.

Putin təfərrüatlarla bağlı sövdələşmənin nəticəsinin daha aydın olmasını gözləyərək dəvəti rədd edib. Ukraynada qüvvələr nisbətinin Rusiyanın xeyrinə olması Kiyevin NATO-ya üzv olmayacağı və Moskvanın 2014-cü ildən bəri zəbt etdiyi Ukrayna ərazilərinin bir hissəsini alacağı anlamına gəlir. Demək olar ki, NATO-ya üzvlük məsələsi hələlik gündəmdə deyil. Əsl mübahisələr, görünür, torpaq ətrafında gedəcək. Bu məsələ 2022-ci ilin martında razılaşdırılan və Qərbin müdaxiləsi nəticəsində son anda imzalanmayan, daha yaxşı dövrlərə qədər qalan İstanbul Protokolunda müzakirə oluna bilərdi. Əgər Rusiya nəzarətində olan bəzi ərazilərdən çəkilməyə razılaşarsa, İstanbuldan sonra birbaşa sülh yolu yarana bilər. Nəticədə bir gün əvvəl İstanbul danışıqlara gəlməyən liderlər tezliklə imzalanma mərasiminə gələ bilərlər.

Avropa imperialist dövlətlərinə, hər şeydən əvvəl Almaniyaya öz ölkələrindəki fəhlə sinfinə hərbi xərclərin niyə rekord həddə çatdığını izah edə bilmək üçün "böyük düşmən" lazımdır. Rusiya uzun müddət bu düşmən olaraq qalacaq. Ona görə də ona qarşı sanksiyalara yeni sanksiyalar əlavə edilib. Heç kimə sirr deyil ki, Ukrayna münaqişəsində İstanbulun raundu öz məqsədinə çatarsa, Türkiyə bundan iqtisadi və siyasi baxımdan da qazanclı çıxacaq. Və əslində o, silahlı qarşıdurmanın lap əvvəlindən qalib gəlir. NATO ölkələri Moskvaya qarşı sanksiyalar tətbiq etmək qərarına gəlsə də, Türkiyə onlara qoşulmayıb. Ölkə Rusiyadan təbii qaz almağa, ruslar isə Akkuyu atom elektrik stansiyasının tikintisinə davam edirdi. Frankfurter Allgemeine Zeitung-un qeyd etdiyi kimi, bu zaman İstanbul hava limanı Rusiyaya uçuşlar üçün mərkəzə çevrilib.

Beləliklə, Türkiyənin hər iki tərəflə yaxşı anlaşaraq, hərbi münaqişədən faydalanan nadir ölkələrdən birinə çevrildiyini söyləmək olar. Burada həlledici amil Türkiyənin özünün "uğurlu xarici siyasəti" deyil, münaqişə tərəflərinin bundan vaz keçə bilməməsi idi. Hərbi münaqişənin gedişi, tutduqları mövqe, öhdəliklər və maraqlar onların da Türkiyəyə qarşı ikili siyasət yürütməsinə səbəb oldu. Amma bu hərbi qarşıdurmada əsl qalib Türkiyə deyil, bu müharibə ilə məqsədlərinin əhəmiyyətli bir hissəsini əldə etmiş Qərb imperialist ölkələri və onların silah və enerji şirkətləridir. Yüz minlərlə həlak olan Ukrayna və Rusiya vətəndaşları və döyüşçüləri üçün əsas məsuliyyəti məhz onlar daşıyırlar. Əgər 3 il əvvəl İstanbul protokolunun imzalanmasının əleyhinə çıxış etməsəydilər, bu qədər insan tələfatı, maddi itkilər olmazdı. Amma imperializm məhz belə bir sistemdir.

***V.VƏLİYEV***

# Azərbaycana palma yağının idxalı dayandırılıb?

*İQTİSADÇI AÇIQLADI*





"Maraqlıdır ki, Azərbaycana 2023-cü ildə 45,5 min ton, 2024-cü ildə isə 64,5 min ton palma yağı və onun fraksiyaları idxal edilib. Amma bu il Statistika Komitəsi elan edir ki, guya yanvar ayının 1-dən indiyə qədər Azərbaycana, bir kiloqram da olsun palma yağı idxal edilməyib. Bununla bağlı Nazirlər Kabinetinin heç bir qərarı yoxdur. Ölkəyə palma yağının idxal edilməsinin qadağan olunması barədə yanvarın 1-dən etibarən heç bir qərar qəbul edilməyib". Bu sözləri SİA-ya açıqlamasında "Liberal İqtisadçılar Mərkəzi"nin sədri Akif Nəsirli deyib.

Akif Nəsirli sözlərinə belə davam edib: "Elə isə sual olunur: illərlə artan templə davam edən palma yağı idxalının qarşısını nə alıb? Əgər bu, gömrük işçilərinə tapşırıq şəklində verilibsə ki, bu tip yağların ölkəyə daxil olmasına mane olsunlar, bunun üçün hüquqi baza olmalıdır. Palma yağının Azərbaycana idxalının qadağan olunması üçün mütləq qanun və ya hansısa hüquqi normativ akt qəbul edilməlidir ki, Gömrük Komitəsi də bu normativ hüquqi akta əsaslanaraq ölkəyə idxalı dayandırsın.

Maraqlıdır, əgər həqiqətən də yanvarın 1-dən palma yağı ölkəyə idxal olunmursa, bu, hansı qərar əsasında dayandırılıb? Bu, bəlli deyil. Amma məsələnin digər tərəfi də var. Əgər palma yağının Azərbaycana idxalı doğrudan da dayanıbsa, bu təqdirəlayiq haldır. Çünki palma yağı ucuz olsa da, insan sağlamlığına zərər verə biləcək tərkibə malikdir.

Palma yağı iki formada olur: birincisi, palmanın lətindən alınan yağdır ki, bu, daha keyfiyyətli və bəzi hallarda faydalı yağ sayılır. İkincisi isə palmanın çəyirdəyindən alınan yağdır ki, məhz bu növ insan sağlamlığı üçün zərərlidir. Çünki bu yağın molekulları kifayət qədər böyükdür və insan həzm sisteminin süzgəclərindən bəzi hallarda keçə bilmir. Davamlı qəbul edildikdə isə bu süzgəclər sıradan çıxır və yağlar orqanizmdə piy şəklində toplanmağa başlayır. Bu da piylənməyə, nəticə etibarilə isə kökəlməyə səbəb olur. Piylənmə və kökəlmə isə bir çox xəstəliklərin səbəbkarıdır.

Digər tərəfdən, palma yağının ərimə temperaturu insan orqanizminin orta temperaturundan yüksəkdir - təxminən 40°C. Bu səbəbdən də palma yağı insan orqanizmi üçün uyğun hesab olunmur və bu fikir bir çox ölkələrdə qəbul olunub. Ona görə də, bu yağlar nisbətən ucuz qiymətə satılır, dünya bazarında 1-2 dollar arasında. Məhz ucuz olduğuna görə Azərbaycana gətirilir. Azərbaycanda isə bu yağlara dad verilib, "kərə yağı" adı altında 5-6 manata satılır. Marketlərdə 5-10 manat arasında satılan kərə yağlarının əksəriyyətinin tərkibi tamamilə palma yağıdır.

Bu baxımdan, palma yağının Azərbaycana idxalının məhdudlaşdırılması müsbət haldır. Lakin bu qadağanın hüquqi əsaslarla tənzimlənməsi vacibdir. Əgər hüquqi baza olmadan qadağa tətbiq olunursa, bu zaman sahibkarların hüquqları pozulur. Sahibkar tapşırıqlara uyğun hərəkət etməməlidir, qanun və normativ aktlara uyğun şəkildə fəaliyyət göstərməlidir. Əgər o, ölkəyə qadağan olunmamış məhsul idxal edirsə, amma gömrükdə həmin məhsul dayandırılırsa, bu, qanunsuzluqdur. Bu cür halların qarşısını almaq üçün mütləq palma yağının idxalının qadağan edilməsi ilə bağlı qanun, qərar və ya hüquqi normativ akt qəbul edilməlidir ki, məsələ hüquqi çərçivədə həll olunsun".

***Ayşən Vəli***

# "Nar"ın dəstəyi ilə Azərbaycanda biznesə dair ilk "B4B" kitabı təqdim olundu

**"Nar"ın dəstəyi ilə Azərbaycanda ilk dəfə olaraq "B4B: Business for Business" adlı kitab nəşr olunub və bir sıra ali təhsil müəssisələrində tələbələrə təqdim edilib. Kitab müasir biznesin idarə olunmasına dair praktik yanaşmalar, strateji planlaşdırma və innovativ inkişaf yollarını əhatə edir. Müəlliflər Abbas Abbasov və Vladimir Klimov nüfuzlu Stokholm İqtisadiyyat Məktəbinin məzunlarıdır. Kitabda təqdim edilən ideyalar da məhz bu ali məktəbdə aparılmış tədqiqat və təcrübələrə əsaslanır.**





Kitabın təqdimatları Bakı Ali Neft Məktəbi, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) və Bakı Mühəndislik Universitetində keçirilib. Görüşlərdə iqtisadiyyat və biznesin idarə edilməsi fakültələrinin 200-ə yaxın tələbə və müəllimi iştirak edib. Müəlliflər oxucularla birbaşa ünsiyyət quraraq nəşrin əsas ideyalarını və onların praktik tətbiq imkanlarını müzakirə ediblər. "B4B" və ya "Business for Business" müasir idarəetmə konsepsiyası kimi şirkətin işgüzar tərəfdaşları ilə sıx əməkdaşlığa, innovasiyalar üzərində birgə fəaliyyətə və nəticədə daha davamlı və sürətli inkişafa əsaslanır. Bu yanaşma kitabda "Toyota", "Procter & Gamble", "Coca-Cola", "IKEA" və digər dünyaca məşhur şirkətlərin nümunələri əsasında aydın və praktik şəkildə izah olunur. Nəşr sahibkarlar, menecerlər və biznesə yeni başlayanlar üçün dəyərli bir bələdçi rolunu oynayır.

"Nar"ın bu təşəbbüsə dəstəyi şirkətin maarifləndirmə və gənclərin inkişafına yönəlmiş sosial məsuliyyət strategiyasının davamıdır. Mobil operator gənclərin bilik və bacarıqlarının artırılmasına xidmət edən layihələrə daim önəm verir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# Savaşanda elə savaş, bloka atılma

**MƏTANƏT**

***Müasir dövr gənclərə yeni küsmək növünü təqdim edib: bloka atmaq. Bu yenilik həm də artıq bir neçə ildir ki, nail olmuşuq. Tək bir-birini sevən iki gənc arasında deyil, sinif, tələbə, iş yoldaşları, qohum-qonşu arasında da bu küsmək növündən istifadə edilir. Məsələn, kiminsə sözü bir-birinə xoş gəlmir, aralarında bir inciklik yaranır, bunu aydınlaşdırmaq üçün qarşı tərəfə mesaj yazır, qarşı tərəf isə bu cavabdan ya əsəbiləşir, ya da cavab verməyin mənasız olduğunu hesab edib onu bloka atır.***

Bloka atmaq da belədir ki, (gənclər hər kəsdən yaxşı bilir) artıq qarşı tərəf sənə nə yaza, nə də zəng vura bilir. Lazımdır ki, sən onu bloka saldığın kimi, blokdan çıxarasan ki, o, yaza və ya zəng vura bilə.

Maraqlıdır, deyilmi? Əvvəllər küsülülüyün növləri vardı: xətir qalmaq, incimək, ən sonda isə küsmək. Xətir qalmaq belə idi ki, kiminsə dediyi söz xətrinə dəyərdi, sən də bunu yüngülvarı büruzə verərdin.

İncimək xətir qalmaqdan bir qədər yuxarı həddə olurdu. Əzizlərinin, dost və rəfiqələrinin, sinif, tələbə, iş yoldaşlarının hər hansı bir sözü, hərəkəti, sənə qarşı düzgün olmayan münasibətinə görə arada inciklik yaranardı. Və o, öz yoluna, sən də öz yoluna gedər, günlərin bir günündə də heç nə olmamış kimi barışar və münasibətlər davam olunardı.

Küsmək, yeni əməlli-başlı küsmək üçünsə elə əməlli-başlı da söz-söhbət, münasibətlərin bu həddə çatmasına səbəb olmalı idi. Belə hal olanda dərin küsülülük baş verirdi. Elə küsülülük ki, düz qəbirə qədər gedib çıxırdı. Və yaxud həmin küsülüləri barışdırmaq üçün ağsaqqal-ağbirçəklər məsələyə qarışırdı. Barışdırma alına da bilərdi, alınmaya da. Bəzən küsülülük o dərəcədə olurdu ki, ağsaqqal-ağbirçəklərin üzünə çıxa bilməyən cavanlar onların yanında əl verib görüşür, barışır, sonra isə küsülülüyü davam etdirirdilər.

Lakin müasir dövrdə küsülülüyün bütün növlərini sadəcə bloka atmaq əvəzləyib. Bloka atmaq isə əvvəlki illərin qəti şəkildə küsülülüyü ilə bir dərəcədədir məncə. Yəni hər hansı bir söz-söhbət üçün sinif, tələbə, iş yoldaşının, qohumun, qonşunun və yaxud da sevdiyin insanın üzünə telefonu bağlamaq onun üzr istəməsi, məsələni aydınlaşdırması üçün heç bir yer qoymamaqdır bloka atmaq.

Belə çıxır ki, müasir dövrdə xətir qalmaq, incimək kimi küsmə növləri aradan qalxıb, yerinə qəti küsülülük-bloka atmaq gəlib. Hələ müşahidə də etmişəm ki, yaşından asılı olmayaraq insanlar sözü düz gəlməyəndə sanki bir-birini hədələyir, səni bloka ataram deyirlər. Bu hal daha çox gənclər arasında baş verir. Elə bir söz olan kimi qarşıdakı insan blokdadır. Blokda olan gərək başqa bir nömrə ala və ya əldə edə ki, onunla zəng edə və ya yaza ki, bəlkə məsələyə aydınlıq gətirə, bağışlana bilə.

Bilmirəm, cəmiyyətin bu məsələyə münasibəti necədir, lakin bir qədər dərindən düşünəndə bu bloka atmağın özü bizim dəyərlərimizdən çox uzaqda olan haldır. İnsana Allah tərəfindən danışmaq, ünsiyyət qurmaq qabiliyyəti ona görə verilib ki, hər hansı məsələni danışmaqla, bir-birini anlamaqla həll etsinlər. Bunun əvəzinə kimisə bloka atmaq insanlığa əsla yaraşmayan haldır.

Bəlkə də məni qınayanlar olacaq, bəlkə də mənimlə razılaşanlar olacaq. Lakin gəlin bir anlığa məntiqlə düşünmək, bu gün səni kimsə bloka atırsa, yəni üzünə telefonu hər yerdən qapayırsa, barışmaq üçün bir yer, yol qoymursa, sonra bağışlamaq bir qədər çətin olmurmu? Məncə olur. Barışıq da olur, əvvəlki münasibətlər də bərpa olunur. Lakin bir məsələ əsla həll oluna bilməz: insanın bir-birinə olan saygısı.

Elə bəlkə saygı naminə bir-birimizi bloka atmayaq. Bizim belə bir atalar sözümüz də var: savaşanda elə savaş, barışmağa üz saxla. Bunu müasir "dilə" çevirəndə belə alınır: savaşanda elə savaş, bloka atılma. Ya buna riayət edək, ya da blok məsələsinə diqqət...

# Hindistan bölgə dövlətləri arasında bölünə bilər

Hazırda elə dövlətlər var ki, onların dünya siyasətində mövcudluqları bir o qədər hiss olunmur. Sadəcə, BMT-nin kitab-dəftərində adları keçir və bəzi beynəlxalq təşkilatların ofisləri önündə bayraqları dalğalanır. Baxmayaraq ki, mənasız və gərəksiz yerə dövlət statusu daşıyan, lakin varlıqları hiss olunmayan dövlətlər ərazi baxımından və əhalisinin sayına görə dünya ölkələri sıralamasında ön yerlərdə qərarlaşırlar. Lakin daim başqa ölkələrin başıqapazlısıdır. Hindistan adlı dövlət o dövlətlərdəndir ki, dünyada əhalisinin sayına görə birinci yerdədir. Ərazi baxımından da balaca dövlət hesab olunmur. 28 əyalət və 7 birlik bölgəsindən ibarət olan Hindistan Pakistan, Çin, Nepal, Butan, Banqladeş və Myanmar ölkələri ilə həmsərhəddir. Hindistan dünyada əhalisinin aclıqdan əziyyət çəkən ölkələr sırasındadır. Ölkə əhalisinin az qala 1 milyaddan bir qədər çoxu yoxsulluq həddindən də aşağı həddə yaşayır. "Qlobal Humanitar Yardım Hesabatı 2024" məlumatlarına görə, dünyada 2 milyard insan yoxsulluq, 855 milyon nəfər də həddən artıq yoxsulluq içində həyatını davam etdirməyə çalışır: "Ən çox yoxsulluqdan əziyyət çəkən dövlətlər sırasında Hindistan birinci yerdədir. Bu ölkədə 1 milyarda yaxın insan yoxsulluq həddindən də aşağı səviyyədə həyatlarını davam etdirirlər".

Araşdırmalar əsasında məlum olur ki, Hindistanda mənzil və iş sahibi olmaq çox çətindir. Burada ölkə əhalisinin 70 faiznin evi yoxdur, 65 faiz əhali isə işsizlikdən əziyyət çəkir. Hakimiyyəti zəbt edən ifrat radikal dairələr əhalinin sosial-iqtisadi durumunun yaxşılaşdırılması gücünə və imkanlarına malik deyillər. Daha doğrusu, ölkənin inkişafının, əhalinin yaşayışının təmin olunması üçün konkret plana, layihəyə malik deyillər. Bu da əhalinin yaşayışının günü -gündən pisləşməsinə gətirib çıxarır. Bəzi siyasi analitiklərin də qeyd etdiyi kimi, Hindistanın idarəolunmaz vəziyyətə düşməsi ölkənin yenidən parçalanmasına gətirib çıxara bilər. Hindistanın parçalanması ilə bir daha sübuta yetiriləcək ki, bu ölkə müstəqil yaşamaq gücünə malik deyil. Lazımdır ki, yenidən ingilis, ABŞ və ya Çin zopası Hindistanın başının üstündə olsun.

Məlum faktdır ki, 1947-ci ilə qədər Hindistan İngiltərənin müstəmləkəsi altında olub. Hindular xristianlığı qəbul etməsələr də, ingilis adət-ənənələrinə və müstəmləkə idarəetmə tərzinə uyğunlaşıblar. Ona görə də, daim ölkənin əhalisi ingilislərin müstəmləkəsi dövrünü xoş hisslərlə xatırlayır və yenidən o dövrlərin təkrarlanmasını arzu edirlər. Bu baxımdan onu demək olar ki, Hindistan yenidən parçalansa, onun əsas hissəsinə İngiltərə sahib çıxacaq. Təbii olaraq Çinə və Pakistana da pay düşəcək. Beləcə Hindistanın mövcudluğuna son qoyulacaq.

Hindistan Ermənistanı niyə silahlandırır?

Hindistan böyük güclərin əlində alət olduğu halda özünü sındırılmış, təhqir olunmuş dövlət kimi göstərməkdən çəkinir. Əksinə, Pakistan kimi azad, demokratik dövlətə xain hücumlar təşkil etməklə və Ermənistan kimi terroru dövlət siyasətinə çevirən bir quruluşa hərbi yardımlar etməklə, mövcudluğunu göstərməyə çalışır. Xüsusilə də, 44 günlük Vətən Müharibəsindən sonra Hindistan Ermənistana böyük həcmdə silah-sursat yardımları göstərir. Hindistan Ermənistana raket kompleksləri, hava hücumundan müdafiə sistemi, pilotsuz uçuş aparatları və snayper tüfəngləri satır. Bu yaxınlarda Ermənistanla Hindistan arasında 620 milyon dollar dəyərində silah tədarükü ilə bağlı müqavilə imzalanıb. Bununla bağlı Hindistanın "The Economic Times" qəzeti məlumat yayıb. Qəzet yazır ki, müqaviləyə Hindistanın "Pinaka" Reaktiv Yayılım Atəş Sistemlərinin, tank əleyhinə raketlərin və bir sıra döyüş sursatlarının alınması daxildir.

2025-ci ilin fevralın 11-də Ermənistanın müdafiə naziri Suren Papikyan Hindistana səfər etmişdir. Səfər çərçivəsində Ermənistanın müdafiə naziri Suren Papikyan Hindistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Anil Çauhan ilə görüşüb, silah tədarükü ilə bağlı danışıqlar aparmışdır. Məhz səfərin reallaşmasından sonra Hindistan Ermənistana müqavilədə nəzərdə tutulmayan yeni silahlar göndərmişdir.



Bundan əvvəl Hindistanda işgüzar səfərdə olan Ermənistan müdafiə nazirinin müavini Karen Brutyan Hindistanın müdafiə nazirinin hərbi sənaye üzrə müavini Anuraq Bacpa ilə görüşüb. Ermənistanlı nazir müavini həmçinin Hindistan Müdafiə Nazirliyinin Baş katibi Veşveş Neqi, Hindistan Xarici İşlər Nazirliyinin katibi Pavan Kapur və Hindistanın Baş naziri yanında Milli Təhlükəsizlik Şurası katibinin hərbi müşaviri Sandip Sinq ilə də müzakirələr aparıb. Tərəflər arasında müdafiə sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Müqavilələrə əsasən, Hindistan Ermənistana yerli istehsalı olan "Pinaka" reaktiv yaylım atəşi sistemləri, eləcə də tank əleyhinə raketlər və silah-sursat partiyası göndərəcək. Bildirilir ki, bu müqavilə ilə Hindistan "Pinaka" sistemlərini ilk dəfə olaraq xarici ölkəyə satır.

2020-ci il Vətən Müharibəsində Ermənistan acınacaqlı məğlubiyyətə uğradıqdan dərhal sonra Hindistanla Ermənistan arasında 40 milyon dollar dəyərində dörd "Swathi" əks batareya radarının tədarükü üçün müqavilə imzalanıb. Düzdür, Hindistanın silahları köhnə və heç bir keyfiyyəti olmayan silahlardır. Həmin silahların heç bir gücü və təsir imkanları olmadığını bir qədər əvvəl Hindistan-Pakistan savaşı zamanı bəlli oldu. Hindistanın Pakistana atdığı silahlar hədəfə çatmadan ölkə ərazisinə düşdü. Hətta bəzi raketlər elə Hindistanın şəhər və qəsəbələrinə düşməsi səbəbindən böyük insan itkiləri, evlər dağıntılara məruz qaldı. Pakistan sadə bir əməliyyatla Hindistanın Fransa istehsalı "Rafale" də daxil, 5 bahalı döyüş təyyarəsi vurdu, artilleriya mövqelərini darmadağın etdi. Toqquşmalar bir qədər də uzansa idi, heç şübhəsiz Hindistan ordusunu və bununla yanaşı hərbi bazalarının böyük hissəsini itirə bilərdi. Ona görə də, reallığı qəbul edən Hindistanın Modinin hakimiyyəti Çinin və ABŞ-ın sülh şərtlərini qəbul etmək məcburiyyətində qaldı.

## Hindistan, əslində, tarixi türk əraziləridir

Hindistan, əslində, tarixi türk tayfalarının yaşadığı ərazilərdir. Bu ərazilərdə min illər türk tayfaları hökmranlıq ediblər. İslamın günəş kimi dünyaya doğmasından sonra ərəblər islamı yaymaq üçün geniş çoğrafi ərazilərə yürüşlər təşkil etməyə başladılar. VIII əsrin əvvəllərində ərəblər Hindistana hücum etdilər. Feodal dağınıqlığı, ara müharibələri, sürətlə hərəkət edən ərəb süvariləri Hindistanın işğalını asanlaşdırdı. VIII əsrin əvvəllərində ərəb sərkərdəsi Məhəmməd ibn Qasimin qoşunu Sind vilayətini, Hind çayının sahillərini tutdu. Ərəblər Qərbi Hindistanı işğal etdilər. Burada iki ərəb əmirliyi yarandı: Mənsurə (Sindin cənubunda) və Multan əmirlikləri. Qərbi Hindistanda VIII əsrdə islam dini yayıldı. Yerli əhalinin islam dinini qəbul etməsi Hindistanda mədəniyyətin inkişafına təkan verdi. Hindistanda feodal ara müharibələri genişləndi. Bu dövrdə döyüşçülərin xüsusi hərbi təşkilatı olan racəlit kastası yaranmışdı. "Racəlit" racələrin uşaqları deməkdir. Bu kastaya racə başçılıq edirdi. Feodal ara müharibələri dövründə var-yoxdan çıxmış kəndlilər VIII əsrin ortalarında Benqaliyada üsyana başladılar. Racələr üsyanı yatırtmaq üçün birləşdilər. Şimali Hindistanın Qəznəvi dövlətinə qatılması. Ara müharibələri nəticəsində Hindistan ən zəif ölkəyə çevrilirdi. Qəznəvi dövlətinin sultanı Mahmud Qəznəvi 1002-1026-cı illərdə Hindistana 17 dəfə hücum etdi, Pəncab və Sind əyalətlərini Qəznəvi dövlətinə qatdı. Bu yürüş nəticəsində Hindistanın şimalında türk-müsəlman əhalisinin məskunlaşması və bu yerlərdə İslam dininin yayılması gücləndi. Türk tayfalarının Şimali Hindistanda yerləşməsi və bu ərazinin türk dövlətinə daxil edilməsi burada təsərrüfatın və mədəniyyətin inkişafını sürətləndirdi.



Hindistan ərazilərinin işğal edilməsinə son qoyulması, yalnız bu ərazilərdə yaşayan xalqların türk dövlətləri ilə geniş əlaqələr qurmasından sonra mümkün olmuşdur. Əslən Azərbaycan türkü olan Böyük Moğol imperatoru Əkbər şahın hakimiyyəti illərində bu bölgə sakit bir yerə çevrilmişdir. Əkbər şah dövlət quruculuğu işlərində Osmanlı imperatorluğundan məsləhətlər alır və dövlət idarəetməsini məhz o məsləhətlərə əsasən həyata keçirirdi. Əkbər şah dövlətin inkişafına nail olmaq, əhalinin yaşayışını yaxşılaşdırmaq üçün Osmanlı sultanlığının məsləhətinə əsasən bütün torpaqları dövlətin mülkiyyəti elan etdi, onu becərənlər isə haqq ödənildi. Əkbər şah ölkə iqtisadiyyatının inkişafına, ticarət və ticarət əlaqələrinə xüsusi diqqət yetirirdi. Buna da türk dövlətlərinin dəstəyi ilə həyata keçirməyə nail oldu.

## Hindistanın faşist hakimiyyəti Nadir şah Əfşarın dərslərindən nəticə çıxarmayıb

Sonrakı illərdə zəif iradəli, bacarıqsız şahların idarə etməsi Hindistanın çökməsinə gətirib çıxardı. Bundan istifadə edən Avropa ölkələri, xüsusilə Fransa və İngiltərə tez-tez Hindistana hərbi yürüşlər təşkil edirdilər. Hindistanda nüfuz dairəsi uğrunda ingilis-fransız müharibəsi (1756-1763) daha amansız xarakter almışdır. Hər iki tərəfdən on minlərlə insan həlak olsa da, sonda qalib gələn tərəf ingilislər olmuşlar. Hind torpaqlarının işğalına başladılar.

Hindistanın ingilislər tərəfindən işğal edilməsi türk tayfalarını ciddi narahat etməyə başlamışdır. Lakin o dövrdə İngiltərənin böyük hərbi gücə malik olması türk birliklərini Hindistana yardım etməyə imkan vermirdi. Nəhayət, tarixin ən böyük Türk sərkərdələrindən olan, Böyük Azərbaycan imperiyasının şahı Nadir şah Əfşar Hindistanda qayda-qanun yaratmaq və ingilisləri, eləcə də keyfiyyətsiz hala gəlmiş moğulları cəzalandırmaq üçün Dehli üzərinə hücuma keçdi. Qısa müddətdə hazırkı Hindistanın şimalını ələ keçirən Nadir şah 1739-cu ilin martında Karnal döyüşündə qələbə qazanaraq martın 8-də Dehliyə daxil oldu. İngilis tədqiqatçıları "Tazkira of Anand Ram Mukhlis" in J. Ed. Dowson, " The History Of India As Told By Its Own Historians" adli əsərdə, Moğol hökümdarinin vəziyyəti ilə bağli belə yazirlar: "Biz Məhəmməd şahın Azərbaycan imperatoruna (Nadir şah) səfərinin nəticəsini gördük. Bir neçə gündən sonra Asəf Cax aydın olmayan bəzi məsələləri həll etmək üçün göndərildi; lakin bilinməyən bir səbəbə görə o, bu tapşırığı yerinə yetirə bilmədi və düşərgədə saxlanıldı. Sonra Məhəmməd şahın özü, yenidən əlinə silah alıb vuruşmağa çağıran bir neçə şəxsin etirazına baxmayaraq, ayın 26-sı imperatoru ikinci dəfə ziyarət etdi. Bu görüşün nəticəsi olaraq Məhəmməd Şah, Nadir şahın düşərgəsində qalmağı məqsədəuyğun hesab etdi. Nadir şah düşərgəsinin arabalarının bir hissəsini gətirməyi əmr etdi. Tədricən dövlətin bütün əsas simaları Əlahəzrətə qoşuldular. Üzdə bunu könül xoşluğu ilə etmələri görünsədə, əslində məcbur idilər. Hərbi qüvvələrə onları müşayiət etmək əmri verilmişdi. Burada 100.000 güclü, yaxşı silahlanmış atlı bir ordu sanki əsir kimi saxlanılırdılar. İmperatorun və onun zadəganlarının bütün ehtiyatları indi Qızılbaşın ixtiyarında idi! Hamıya elə gəlirdi ki, Moğol sülaləsi sona çatdı".

Hindistanı ələ keçirəndən sonra Nadir şahın adına xütbə oxundu, zərb olunan pulların üstündə belə bir yazı yazıldı "Nadir yer üzünün sultanlar sultanı, krallar kralı, uğur hökmdarıdır."

Fransız alimi Pierre Bayen yazırdı ki, "Nadir şah Osmanlı imperiyasının dəhşəti, Hindistanın fatehi, bütün Asiyanın hökmdarı idi".

1739-cu ilin may ayında Nadir şah Hindistanda taxtı Məhəmməd şaha təhvil verib, Azərbaycana qayıtdı. Bu baxımdan tam qətiyyətlə demək olar ki, dünyanın ən böyük sərkərdələri sırasında Nadir şahın özünəməxsus yeri və rolu var. Əsrlər keçsə də, bu böyük fatehin sərkərdəlik məharəti, dövləti idarəetmə üsulu, xalqla davranış qaydaları unudulmayıb və bundan sonra da yaddaşlardan silinməyəcək. Əksinə, tarixçilər, tədqiqatçılar, hərbi ekspertlər Nadir şah haqqında yeni məlumatlar almaq ümidi ilə arxivlərə üz tutacaq, tarixi yerlərdə tədqiqatlar aparacaq. Fransa imperatoru Napoleon Bonapart 1812-c il də "mən özümü yeni Nadir şah hesab edirəm" deyərək Rusiyaya hücuma keçmişdir. Bəzi tədqiqat əsərlərində Napoleon Bonapart Avropanın Nadir şahı adlandırılır. Eləcə də, SSRİ rəhbəri İosif Stalin Nadir şahı özünün müəllimi hesab edirdi.

Təəssüflər olsun ki, Nadir şah Əfşarın bayrağının ucaldığı və türk tayfalarının yurd yeri olan Hindistanı qoruyub saxlaya bilmədik. Nəticədə, 1912-ci ildə ingilislər Nadir Şah Əfşar kimi sərkərdələrin meydanda olmadığından istifadə edərək Hindistanı yenidən işğal etdilər. 1947-ci ildə isə ingilislərin bölgəni tərk etməsi ilə Hindistan adlı əcaib quruluşun yaradılmasına imkanlar yaradıldı. Hansı ki, bu başıbəlalı quruluş özünü dövlət adlandırır və müsəlman-türk dünyasına diş qıcıyır, Ermənistan kimi terrorçu quruluşu silah-sursatla təchiz edir. Yəqin ki, elə bir gün gələcək ki, Nadir şah Əfşarlar yenidən yaranacaq və Hindistandakı faşist təfəkkürlü hakimiyyətləri cəzalandırmaq üşün fəaliyyətə başlayacaq.

***İLHAM ƏLİYEV***

# Dmitri Solonnikov: "İlham Əliyev Avropa Siyasi Birliyinin sammitində ölkənin milli maraqlarını qorudu"





***Müasir Dövlət İnkişafı İnstitutunun (Rusiya) direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Siyasi Birliyinin sammitinə səfərinin nəticələrini təhlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Dmitri Vladimiroviç, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Siyasi Birliyinin sammitinə səfərinin nəticələrini necə təhlil edirsiniz?***

- Bu, İlham Əliyevin Avropa Siyasi Birliyinin sammitinə ilk səfəri deyil. Əgər sammit iştirakçılarına nəzər salsanız, görərsiniz ki, Azərbaycan lideri Avropa Parlamentinin "dəyərli göstərişlərinə" əməl etməyi nəzərdə tutan əsas cərəyanın üzvü olmayan yeganə dövlət başçısı olub. Aydındır ki, hətta Aİ daxilində müxtəlif dövlətlər Brüsselin idarəedici, rəhbər komandalarına fərqli münasibət bəsləyir, lakin bu, onların Avropa İttifaqının üzvü olmasına mane olmur. Balkan ölkələri hazırda Aİ-yə üzvlüklə bağlı danışıqlar aparır. Azərbaycan bu mövzuda danışıqlar aparmır. Bakının qlobal proseslərə öz baxışı var və Əliyev də sammitə ölkənin qlobal proseslərlə bağlı dəqiq müəyyən edilmiş mövqeləri ilə gəlib. Bu gün dünyanın inkişafı ilə bağlı bir neçə nöqteyi-nəzər üstünlük təşkil edir: Trampın hakimiyyətə gəlişi ilə avropalılardan nəzərəçarpacaq dərəcədə fərqlənən amerikalılar, ruslar, çinlilər və Latın Amerikası öz baxışını irəli sürür.

Aydındır ki, Avropa proseslərinin favoritləri Merz, Makron, Starmerdir - Avropadan söhbət düşəndə daha çox dünya xəbər agentliklərinin birinci səhifələrində olan siyasətçilərdir. Biz görürük ki, keçmiş postsovet məkanının bir sıra ölkələri: Ukrayna, Moldova, Ermənistan, Gürcüstan üçün Avropaya inteqrasiya prioritet məsələdir. Bunlar keçmiş Sovet İttifaqı ölkələridir ki, Aİ-yə daxil olmaq üçün hər cür cəhd göstərirlər. Bu baxımdan da Rusiya əleyhinə siyasət oynayırlar.

Təbii ki, Azərbaycanda Aİ ölkələri enerji və nəqliyyat komponentlərinə maraq göstərirlər.

Eyni zamanda, başa düşmək lazımdır ki, Azərbaycan ilə bir sıra Avropa ölkələri, məsələn, Macarıstan və Serbiya arasında yaranmış həqiqi dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətləri nəzərə alaraq, Azərbaycan Respublikasına təzyiq etmək ideyası və Bakı ilə Moskva arasında parçalanma yaratmaq cəhdləri Aİ-də hələ də ortadan qalxmayıb. Azərbaycanı anti-Rusiya gündəminə daxil etmək istəyi var, amma açıq şəkildə buna nail ola bilmirlər. Bakı, dediyim kimi, öz milli prioritetləri haqqında aydın təsəvvürə malikdir. Və bu halda Əliyevin zirvəyə səfəri ilk növbədə enerji və nəqliyyat komponenti ilə bağlıdır. Əliyev siyasi və iqtisadi komponentləri ayırır. Artıq bir neçə ildir ki, İlham Əliyevin müntəzəm olaraq Qərbi necə sərt tənqid etdiyini xatırlayırıq. Və təbii ki, bunun bir səbəbi var.

Avropa Siyasi Birliyinin sammiti çərçivəsində ünsiyyət quran liderlərin görüntüləri - nəticə göz qabağındadır: müxtəlif qütblərin liderləri razılığa gəlmək istəyirlər. Hətta Əliyevlə Makronun sammitdəki təmaslarından belə başa düşürük ki, məntiq yenidən işə başlayıb - qarşıdurmanı davam etdirməkdənsə, razılığa gəlmək daha yaxşıdır. Bu gün dünyada vəziyyət kifayət qədər ağırdır. Və hər kəsin razılığa gəlməsi vacibdir.

Əliyevlə Paşinyan, həmçinin Əliyev, Paşinyan və Ərdoğan arasında müsbət təmasların olduğunu gördük. Bu görüşlər də mürəkkəb məsələlərin həlli üçün sülh yolu ilə həll yollarının axtarışı məntiqi çərçivəsində baş tutub. Əliyevlə Paşinyanın yolları hər dəfə kəsişəndə ümid yaranır ki, bəlkə indi razılığa gələcəklər. Bu həmişə baş vermir, lakin əlaqələr hələ də vacibdir. Bu təmaslar var - bu təmaslarda qarşılıqlı maraq var, yəni tərəflərin sonda razılığa gəlmək şansı var. Sülh müqaviləsinin imzalanması bu gün Ermənistan hakimiyyəti üçün bir növ əsas məsələdir.

İrəvan vaxtaşırı imzalanma istiqamətində siqnallar verir, eyni zamanda Azərbaycana qarşı iddialar da səsləndirir. İrəvanın son illərdəki ənənəvi siyasəti belə olub: bir addım irəli - iki addım geri. Amma razılığa gələcəyimizlə bağlı bəyanatlardan sonra razılığa gəlmək lazımdır. Hələ ki, razılığa gəlməmişik.

Aydındır ki, Nikol Paşinyanın Avropa Siyasi Birliyinin sammitinə səfərinin məqsədləri İlham Əliyevin səfərinin məqsədlərindən fərqlənir. Qarşıda Paşinyanın parlament seçkiləri ilə bağlı kampaniyası var. Və bu çərçivədə onun Qərblə təmasları var. Paşinyan tərəfdən qaçdığını görürük. Əliyev isə əksinə, istənilən platformada öz nöqteyi-nəzərini, Azərbaycanın milli maraqlarının rəsmi nöqteyi-nəzərini təbliğ edir.

***- Lavrovun Ermənistana gözlənilən səfəri çərçivəsində Rusiya İrəvana hansı sualları verəcək?***

- Yenə deyirəm, susmaqdansa danışmaq yaxşıdır. Bu, danışıqların olmamasından yaxşıdır. Fərqli ərazilərdə hərəkətin başlaması şansı varsa, o zaman başlayacaq. Bu müsbət və yaxşıdır. Çoxlu sayda suallar var. Bura Ermənistanın AİI-dəki perspektivləri və KTMT-dən çıxmağı gözlədiyi daxildir. Cənubi Qafqazdakı vəziyyət isə "3+3" formatındadır. Söhbət Rusiya hərbi qulluqçularının Ermənistandakı statusundan gedir. Rusiya-Ermənistan münasibətlərində çoxlu kəskin məsələlər var. Xarici işlər naziri Ermənistana gedərsə, o zaman bütün spektrdə müzakirələr aparılacaq. Bu, texniki məsələləri müzakirə etməyə gələn hansısa dar mütəxəssis deyil; Nazir ikitərəfli təmasların bütün gündəliyini müzakirə edəcək.

***Tərcümə - Elçin Bayramlı***



Elçin Bayramlı

# Bəşəriyyət son seçim qarşısındadır

***Bu gün zəngin və məhsuldar bir planetdə məcburi aclıq keçirən 1 milyard adam var. Onlardan 300 milyona yaxını uşaqlardır. Bir uşağın acından ölməməsi üçün ayda 30 dollar tələb olunduğu dünyada trilyonlarla dollar vəsait mənasız və faydasız işlərə xərclənir. Misal üçün, dünyanın hərbi büdcəsi 1,5 trilyondan çoxdur ki, bunun da yarısı ABŞ-ın payına düşür.***

Təxmini hesablamalara görə, dünyada hər il 50 000 insan kəskin aclıq nəticəsində ölür. Qlobal yoxsulluğa dair göstəricilərə əsasən ifrat yoxsulluqdan hər gün dünyada 30 000 uşaq vəfat edir, 11 milyon uşaq isə 5 yaşı tamam olmadan dünyasını dəyişir.

Dünyada varlı və kasıb dövlətlər, eləcə də insanlar arasında fərq kəskin surətdə artır və ildən-ilə böyüyür. 1960-cı ildə dünyanın zəngin dövlətlərinin 20%-nin gəlirləri ilə yoxsul ölkələrin 20%-nin gəlirləri arasındakı fərq 30-un 1-ə nisbətində olduğu halda, 1990-cı ildə bu fərq 60-ın 1-ə, 1997-ci ildə isə 70-in 1-ə nisbətində olub. Hazırda bu rəqəm 80-in 1-ə nisbətinə yaxındır.

Statistikadan göründüyü kimi, dünyada gəlir bölgüsündəki disproporsional hədd zəngin ölkələrin imkanlarını genişləndirməkdə və yoxsul ölkələri isə təhdid etməkdədir. BMT statistikalarına və Əhali Fondunun hesabatlarına görə, dünyada 1 milyarda yaxın adam yüksək təminatlı vəziyyətdə yaşayır- 1 milyarda yaxın insanın aclıqdan ölmək üzrə olduğu dünyada. Dünya nemətlərinin 80 faizlik böyük hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Belə olan halda dünyada normal insan cəmiyyətindən danışmağa dəyərmi? Əlbəttə, xeyr. Biz sosial cəhətdən qoprxunc bir dünyada yaşayırıq.

Hazırda dünyada istehsal edilən ərzaq məhsulları təxmini hesablamalara görə, 12 milyard adama kifayət edəcək həddədir. Əlbətə, normal istifadə şəraitində. Lakin istehsal, daşınma və satış zamanı yol verilən itkilər, qeyri-bərabər bölünmə və hədsiz israfçılıq 1 milyarda yaxın adamın ac qalmasına səbəb olur. Hesablamalara görə, təkcə Amerika və Britaniyada zibilliyə atılan qidalarla 1 milyarda yaxın adamı doydurmaq olar.

BMT-nin alimlər qrupunun hesabatında qeyd olunur ki, təbii ehtiyatlardan səmərəli istifadə olunacağı halda Yer kürəsi indikindən dəfələrlə çox insanı yedirdə bilər. Onlar bu rəqəmin 60-70 milyard olduğunu bildirirlər.

Yoxsulluq coğrafiyasına diqqət yetirdikdə belə bir məqam nəzərə çarpır: bu ölkələr ya kənd təsərrüfatı, ya da hasilat sənayesi üzrə ixtisaslaşıblar və müasir texnologiyalar əldə etməyə çətinlik çəkirlər.

Müasir texnologiyalı dövlətlər istənilən halda bu texnologiyanın başqa ölkəyə verilməsində maraqlı olmur. Tez-tez eşidirik ki, dünyanın iri dövlətləri kasıb ölkələrə kredit verir. Kreditlərin strukturuna baxanda görürük ki, bu kreditlər əsasən müəyyən əmtəələrin alınmasına verilir.

Bu əmtəələr də kredit verən iri dövlətlərdə istehsal olunur. Bir sözlə onların verdikləri pullar faizlə birlikdə özlərinə qayıdır. Faktiki olaraq özləri öz şirkətlərinə vəsait verərək dövlət sifarişlərini həyata keçirirlər.

Yəni, bu gün imperialist dövlətlər və onların transmilli şirkətləri 3-cü dünya ölkələrinin sərvətlərini çoxsaylı vasitələrlə amansızcasına talamaqla məşğuldurlar. Bu ölkələrdəki aclığın, yoxsulluğun yeganə səbəbi budur. Öz sərvətlərini onlara verməməkdə israr edən ölkəni Liviyanın, Suriyanın taleyi gözləyir.

Lakin bu halda belə varlı dövlətlərdə yoxsulluq ləğv olmur. Məsələn, təkcə hərbi büdcəsi 750 milyard dollar təşkil edən Amerikada rəsmi olaraq 35-40 milyon civarında yoxsul var. Bu əhalinin 10-12 faizini təşkil edir. Maliyyə gəlirləri yüksək olan digər ölkələrdə də vəziyyət təxminən belədir.

Dünyadakı problemlərin həlli üçün yaradılmış, lakin proseslərə heç bir müdaxilə imkanı olmayan BMT dünya dövlətlərini qlobal problemləri həll etmək ətrafında cəmləyə bilmir. BMT təşkilatları müxtəlif hesabatlar hazırlayır, statistikalar yayır, dünya liderlərini nəyəsə çağırır... lakin bu sadəcə ağsaqqalar məclisi formasına çevrilmiş bir təşkilat olduğundan heç bir təzyiq, tələb, təsir imkanı yoxdur.

Qlobal şeytani qüvvələr, dünya ölkələrində siyasi, iqtisadi, sosial, mənəvi problemlərin artmasında, hərbi münaqişələrin, xaosun, qarşıdurmaların baş verməsində katalizator rolunu oynayırlar. Ölkələri, xalqları, dini icmaları birbirinə qarşı qoyub qanlı qarşıdurmalar törədirlər. Bunun qarşısını almaq getdikcə daha da çətinləşir. Çünki qlobal qüvvələr bu istiqamətdə birləşib və onlara qarşı çıxmaq üçün heç bir ölkənin təkbaşına gücü çatmır. Bu ölkələrə birləşməyə heç imkan da vermirlər. Bax dünyamız belə bir dəhşətli şeytani tora salınıb, heç cür də çıxa bilmir.

Dünya maliyyə, bank, birja sisteminin, transmilli korporasiyaların, elmi-texnoloji mərkəzlərin sahibləri dünyanı öz əllərində saxlayıb idarə etmək üçün hər oyundan çıxırlar- insanlığa, təbiətə qarşı bioloji terrordan tutmuş psixotron terroradək hər cür təcavüz edilir. Əgər istəsələr dünyada hamıya hər şey çatar. Amma "hamıya hər şey çatmır" deyib, hamının sayını azaltmaq istəklərini açıq-aşkar deyilər və bunu həyata keçirirlər. Virus terrorundan tutmuş qida terroruna qədər. Müharibələrin isə ardı-arası kəsilmir.

Qlobal kapitalizm sistemi dünyamızı məhvə apararı. Lakin bu imperialist qüvvələrin vecinə də deyil. Hər dövlət öz hegemonluğunu genişləndirməyə, daha çox silahlanmağa, digər ölkələrin zəifləməsinə çalışır. Bunun axırı yaxşı qurtarmayacaq. Yeganə xilas yolu bütün bəşəriyyətin ağıllı olmasından keçir ki, bu da hələ ki mümkün olmur. Bəşəriyyət isə göz qabağında məhvə doğru gedir.

Artıq seçim vaxtı gəlib çatıb- 2 yol var- ya dünyada normal insan cəmiyyəti qurulacaq, ya da bəşəriyyət məhv olacaq.

# Vaxtından əvvəl nübar, yoxsa orqanizmdə yaranacaq azar?

## Sağlam qidalanma üzrə mütəxəssis Məhsəti Hüseynovanın SİA-ya müsahibəsini təqdim edirik:

***- Mövsümi olmayan meyvə və tərəvəzlərin qəbulu ziyandır?***

- Bizim hər mövsümə uyğun meyvə və tərəvəzlərimiz zəngindir. Artıq may ayındayıq, çiyələyin, alçanın mövsümü gəlib çatıb. Bir çox insanlar bu meyvə-tərəvəzlərdən bəzən miqdarından artıq qəbul edirlər ki, bu da onlarda mədə-bağırsaq sisteminin pozulmasına gətirib çıxarır. Yaxşı olar ki, hər bir insan birinci növbədə qidaya qarşı həssaslığının, allergiyasının olub-olmadığını bilsin. Bu qidaları alarkən daha çox yerli, mövsümündə yetişdirilmiş olduğuna diqqət etsinlər. Çünki həmin meyvələrin bu gün biz istixana şəraitində yetişdirilənlərini də görürük. Xüsusilə, çiyələklər daha çoxdur. Belə olan halda həmin qidaları immun sistemi zəif olan insanlar, azyaşlılar qəbul etdikdə allergiya ilə yanaşı, həm də tərkibindəki kimyəvi maddələrə qarşı da yüksək həssaslıq yaranır. Bu da bir çox hallarda zəhərlənmə ilə nəticələnir. Ona görə mütləq keyfiyyətli, yerli, mövsümə uyğun olmasına diqqət etsinlər. Gün ərzində də 200-250 qramı keçməmək şərti ilə qəbul etmək lazımdır. Balans nisbəti gözlənilməlidir. Bəzən görürük ki, bəyənirlər deyə, alçanı yarım kilodan da çox qəbul






edirlər. Bu da fəsadlara yol aça bilir. Bağırsaqların funksiyası pozulur, qan tərkibi dəyişir. Ona görə mütləq miqdara diqqət etsinlər.

***- Bir çox hallarda allergiyalardan həyatımız boyu xilas ola bilmirik. Bununla bağlı tövsiyələriniz nədir?***

- Alçanın tərkibində antioksidantlar çox olduğu üçün mütləq onu tək qəbul etmək lazımdır. Dadlandırıcı olaraq alçaya duz əlavə edirlərsə, miqdarı keçəcəksə, orqanizmdə duz-su balansı pozulacaq. Kiçik yaşlı uşaqlara çiyələyi şəkər tozu ilə verirlər. Bu da qida vərdişinin pozulmasıdır. Hər hansı qidanı qəbul ediriksə, öz dadına uyğun sevilməlidir. Əks halda gələcəkdə uşaqlara çiyələyi tək verdikdə bu qida vərdişinin olmadığına görə davamlı olaraq şəkərdən istifadə edəcək. Bu da günlük şəkər miqdarını keçməsinə səbəb olacaq. Xroniki xəstəliyi olan insanlar var. Onlar bəzən təzyiqdən, şəkərli diabetdən əziyyət çəkənlərdir. Duz və şəkərin miqdarı keçirsə, xroniki xəstəliyin kəskinləşməsinə səbəb olacaq.




***- Sağlam qidalanmaq üçün hansı məhsullardan uzaq durmaq lazımdır?***

- Rəf ömrü uzun olan paketlənmiş qidalardan gündəlik qida kimi az istifadə olunmalıdır. Mümkün olduqca çox istifadə olunmamalıdır. Meyvə-tərəvəzləri qəbul edərkən gündəlik yerli, mövsümü olanlara diqqət etməliyik. Bişirilmiş yeməkləri qəbul edirikse, yeni, istehlak olunacaq qədər bişirilməlidir. Köhnə, bayat yeməklərdən istifadə olunmamalıdır. Ağır, yağlı, çətin həzm olunan qidaları yaxşı olar ki, qəbul etməsinlər. Edəcəklərsə də günün birinci yarısında, günorta yeməyində qəbul etsinlər. Axşam daha yüngül, həzm olunan qidaları qəbul etmələri sağlamlıq üçün faydalı ola bilər. Eyni zamanda? müxtəlif çeşidli şəkildə etmək lazımdır. Monoton olaraq eyni qidadan istifadə etmək onun faydalılıq xüsusiyyətini aşağı salır.

***- Gün ərzində enerjili olmaq üçün hansı qidalara üstünlük verilməlidir?***

- Birinci olaraq enerjimizi təmin edən suyu qeyd etmək istəyirəm. Çünki su gün ərzində lazımi miqdarda qəbul olunmadıqda qan dövranının sürəti aşağı düşür. Həm də orqanizmdən toksik maddələr kifayət qədər atılmadığı üçün insanlarda ruh düşkünlüyü, yorğunluq, yuxunun pozulmasına gətirib çıxarır. Bununla yanaşı mütləq günün birinci yarısında bir ovucu keçmədən faydalı çərəzlərdən istifadə edilməlidir. Hətta badamın tərkibindəki maqnezium və digər faydalı elementlər əhval-ruhiyyəni qaldırmaqla yanaşı yüngül baş ağrılarını da aradan qaldırır. Yaxşı olar ki, meyvələri qəbul etdiyimizdə doğranmış qəbul etmək tövsiyə olunan deyil. Böyük ölçülü meyvələrin dişlənərək yeyilməsi həm çənənin inkişaf etməsinə, həm də mərkəzi beyin sisteminin funksiyasını yaxşılaşdırır. Meyvələrin mənşəyi bəllidirsə, qabıqlı yeyilməsi tövsiyə olunandır. Bir çox hallarda xaricdən gətirilən meyvələrin uzun müddət yola dayanması üçün istifadə olunan parafinlər qabıqda toplanır. Ona görə də, bu meyvələri soysalar daha yaxşı olar.

***- Allergiyaya səbəb nədir? Allergiyanın əsas əlamətləri nələrdir?***

- Hər bir insan yaxşı olar ki, xüsusilə də valideynlər özlərində allergiya varsa, bunu uşaqda da yoxlatmalıdır. Çünki bəzi allergik reaksiyalar genetikdir. Ancaq bir çox allergik reaksiyalar mövsümlə, yaşla, insanın sağlamlıq dərəcəsinə görə dəyişə bilir. Qida allergiyası göbələyin tərkibindəki maddələrə qarşı həssaslıqdır, eyni zamanda lobya da allergiya yarada bilər. Dəniz məhsullarına qarşı allergiyası olanlar bunları müəyyənləşdirməlidir. Qan analizləri nəticəsində fərdi allergiyaları bilmək olur. Kimyəvi dərmanlara qarşı allergiyalar hətta ölümlə nəticələnə bilər. Bunu mütləq bilmək lazımdır. Əgər səyahətə, uzaq yerə gedirlərsə, qarışıq qidalardan uzaq durmalıdırlar.



***- Xəstənin suya olan ehtiyacı necə qarşılanmalıdır? Çox su içmək yenidən arıqlamağa səbəb ola bilər?***

- Su insan orqanizmində həm qəbul etdiyi qidaları, həm dərmanların parçalanmasına kömək etməklə yanaşı, zərərli maddələrin atılmasında da əsas rol oynayır. Ancaq hər bir insanın sağlamlıqda, xəstəlikdə, xəstəliyin müalicəsi zamanı qidalanma rejimi fərqlidir. Eyni zamanda qəbul edəcəyi qida miqdarı fərqlidir. Əgər sağlam insan üçün su miqdarını hər kiloqram çəkiyə görə 0,30 qeyd ediriksə, bu, müəyyən xəstəlikləri olan üçün dəyişə bilər. O insanın fərqli sağlamlıq vəziyyətinə görə mütləq şəkildə müəyyənləşdirilməlidir. Müəyyənləşdirildikdən sonra artıq o miqdarı qəbul edə bilər. Bəzən qəbul etdikləri artıq bir stəkan su belə böyrək çatışmazlığına gətirib çıxara bilər. Ona görə də, mütləq bu məqamlara həssas yanaşmaq lazımdır.

**Söylü Ağazadə**

# May toyları: insan inandığı ilə sınanır

*Bu ayda evlənənlərin ömrü boyu əziyyət çəkəcəyinə dair inanclar var*

***Yəqin ki, may ayında evlənən cütlüklərin ailələrinin necə faciəvi şəkildə dağılması, bu ay boşanmaların çox olması ilə bağlı çox əhvalat eşitmisiniz. Ehtimal ki, may ayında evliliklə bağlı böyüklərdən məsləhət aldıqda razı olmayıblar. Əgər belədirsə, yəqin ki, may ayında toy olmaz kimi inancların haradan gəldiyi ilə maraqlanırsınız.***

## Mayda toy edənə 1 əsr əziyyət?

Təəccüblüdür ki, dünyanın bəzi xalqlarının mədəniyyətində yazın sonuncu ayı olan mayda toy şənlikləri keçirilməsi haqqında mənfi fikirlər həqiqətən var. Dünyanın müxtəlif yerlərində may ayında evlənənlərin və onların valideynlərinin hələ də xatırladığı bəzi xoşagəlməz hadisələr barədə kifayət qədər çox əhvalat var. Bəs deyilənlər doğrudurmu? Yoxsa insanlar əslində olması gözlənilən, yaxud təsadüfən baş verən hadisələri səhv anlayırlar?

May toyları ilə bağlı köhnə rus inanclarında da məlumatlar var. Bu mövhumatın mənşəyi ayın adından da irəli gələ bilərdi. Ruslar "may" sözünün "maətsə" sözündən yarandığını düşünürlər, rus dilindən tərcümədə bu söz əziyyət, zülüm çəkmək, pis şəraitdə yaşamaq, özünü əldən salmaq, yorucu işlə məşğul olmaq deməkdir. Buna görə Rusiyada cütlüklər böyüklərin təhriki ilə əsrlər boyu may toylarından qaçırdılar.









Lakin böyüklər bunu təbiətin oyandığı vaxt əkin işlərinin çoxluğu ilə əlaqələndirirlər. Təsəvvür edin, may gəlib, əkin işləri yeni başlayıb, bütün ili ehtiyacınızı təmin edəcək məhsulu əldə etmək üçün çox çalışmaq lazımdır, siz isə üstəlik, may ayında toy da planlaşdırmısınız. May ayında, hətta 1 həftə əkin işlərindən uzaqlaşmaq məhsulun itirilməsinə səbəb ola bilərdi. Əgər məhsul bol olmasa gənclər necə evlənəcək? Lap evlənsələr də, bütün ili necə firavan yaşayacaqlar? "Maətsə" sözü necə yerinə düşür burada, deyilmi?

## Dinlərin may toylarına baxışı

Əsrlərdir dildən-dilə, ağızdan-ağıza keçən, lakin kimsə əsaslandırmadığı üçün bir açıqlaması da yoxdur.

May ayının əkin-təsərrüfat ayı olduğunu nəzərə alsaq. bu ayda əyləncəyə, toya vaxt ayrılmamasının səbəbini anlayarıq. Amma qədim slavyanların may ayında toy etməmək üçün başqa bir səbəbi var idi. May ayının 11-də slavyanlar əcdadlarına itaət günü kimi qeyd etdikləri "Bahar babaları" adlı günə ehtiram məqsədi ilə bu ayda toy etmirdilər.

Bəzi astroloqlar da may ayında toy etməyi məsləhət görmürlər. Onların fikrincə, may ayında Günəş ən dağıdıcı ulduzlardan birinin - Alqolun yanından keçir. Alqol sözünün ərəb dilindən tərcüməsi hərfi mənada "şər ruh" deməkdir. Bundan əlavə, may ayında göy cismini daha iki ulduz - Hyades və Pleiades birləşdirir və bu prosesin qadınları bədbəxt edəcəyinə inanılırdı.




Pravoslav kilsəsi istənilən xurafatı qəti şəkildə pisləyir və kəhanətə inanmağı qadağan edir. Yəni kilsə may ayında evlənməyə qarşı deyil. Ancaq kilsə qanunlarına görə oruclu olarkən evlənmək, toy etmək doğru deyil. Pravoslav təqviminə görə, may ayında bayramlar çox deyil. Bu o deməkdir ki, kilsə ayın çox hissəsində yeni evlənənlərə toy üçün icazə verir. Amma bu da qadağasız deyildi. Məsələn, xristianlıq çərşənbə axşamı və cümə axşamı (oruc günləri ərəfəsində) toyların keçirilməsini qəbul etmir. Mömin cütlüklər üçün Pasxa həftəsi toylar üçün də tabudur. Digər tərəfdən, kilsə, bazar ertəsi və ya bazar günləri toy kimi müqəddəs mərasimə xidmət etmək üçün gənc bir ailəni evləndirməyə məmnun olur.

Müsəlmanlar xurafatı rədd edən bir xalqdır. İslam ənənələri toyları tarix və aylarla məhdudlaşdırmır, yalnız orucluq ayında toy etməyin doğru olmadığı qənaətindədir, çünki həmin vaxt insanlar axşamadək qida qəbul etmir. Bununla belə, son 100 ilin statistikası göstərir ki, Rusiya inanclarının təsiri altında müsəlmanların may ayında evlənmək istəyi azalıb. Bunu 70 il imperiyanın tərkibində yaşamış xalqların bir-birinə assimlyasiya olması ilə əlaqələndirmək olar. Katolik toyu pravoslavdan çox da fərqlənmir. Katolik inancında yeni evlənənlər may ayının istənilən günündə Allahın hüzurunda evlənə bilərlər.

## Qədim Romada da eyni şeyi düşünürdülər

Qədim Roma şairi Ovidin də may toyları haqqında fikirləri var idi. Onun bayramlara, müqəddəs günlərə həsr olunmuş yazılarına nəzər salsanız, bu zaman toylarla bağlı fikirlər tapa bilərsiniz. Tərcümədə belə fikirlər yaranır: "May günlərində nə dul qadına, nə də qızlara toy edin. Onların ömrü uzun olmayacaq. Əgər inanclara hörmət edirsinizsə, xalq deyir ki, mayda evlənmək yaxşı deyil".

Həmçinin qədim Romada may ayında "Lemuriya" deyilən tədbir keçirilirdi. Bütün ay ərzində məbədlər bağlanır, camaat ölülərini yada salır, dua oxuyur, onların adına ehsan məclisləri təşkil edirdilər. Həmin dövrdə kəbin kəsilməsi və toylar məbədlərdə keçirilirdi və "Lemuriya" məclisi ilə əlaqədar olaraq məbədlər bağlı olduğu üçün may ayında toylar keçirilmirdi.

Qədim yunan filosofu Plutarx da may ayında toy etməyin qeyri-mümkün olduğuna inanırdı. O, öz əsərlərində mayı "qocaların vaxtı" adlandırırdı. Bu inancın nə ilə əlaqəli olduğu bilinmir və hətta əsrlər keçsə də, onun səbəbini müəyyən etmək çətindir. Hind mifologiyasında hər insanın uğurlu və uğursuz günləri olduğuna inanılır, evlənməyə hazırlaşan cütlüklər üçün həmin günlərdən biri təyin edilir, toy həmin tarixdə reallaşır.

Avropada da may ayında toy edilməməsi ilə bağlı inanclar olub. 1567-ci ilin mayında şotland kraliçası Meri Stüart üçüncü evliliyini edib. Xalq bu hadisənin hökmdar üçün "sonun başlanğıcı" olduğuna inanırdı. Toydan sonra baş verən silsilə hadisələr kraliçanın devrilməsinə və onun məhbus kimi faciəli ölümünə səbəb oldu. Xalq mayda toyun olmaması qənaətində idi. Bu mövhumat bu gün də güclüdür, Şotlandiya və İngiltərədə may ayı bayramlar üçün qeyri-populyar aydır.

"İnsan inandığı ilə sınanır" deyirlər. İnancımız bizə xoşbəxtlik də yaşada bilər, bədbəxtlik də. Əgər bir əhvalat, rəvayət, deyim haqqında elmi araşdırmalar yoxdursa, o elə mif olaraq qalır, həyatımıza heç bir mənfi təsiri olmur. Təbii, insanların özləri buna inanmadıqları təqdirdə...

***Lalə Mehralı***

# Biomüxtəliflik ekosistemə nə qazandırır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*



***Bioloji müxtəlifliyin qorunması məqsədi ilə 1992-ci il mayın 22-də imzalanmış Birləşmiş Millətlər Təşkilatının Bioloji Müxtəliflik Konvensiyasının qəbul edilməsinin ildönümü olan 22 May hər il bütün dünyada ”Bioloji Müxtəliflik Günü” kimi qeyd olunur. Ümumdünya Bioloji Müxtəliflik Günündə planetdəki təbii həyatın müxtəlifliyini qorumaq və inkişaf etdirmək məqsədi ilə BMT-nin hər il müəyyən etdiyi mövzu çərçivəsində tədbirlər təşkil olunur.***

Biomüxtəliflik anlayışına bitkilər, heyvanlar, göbələklər, mikroorqanizmlər, onların yaratdığı ekosistemlər və yaşadıqları ərazilər daxildir. Biomüxtəliflik üç elementdən ibarətdir -növ müxtəlifliyi, genetik müxtəliflik və ekoloji hadisələr müxtəlifliyi. Biomüxtəliflik, uzunmüddətli dövrdə azalmaya səbəb olmayan, indiki və gələcək nəsillərin ehtiyaclarını ödəmək potensialını qoruyan təbii sərvətdir. Bioloji müxtəlifliyin davamlılığı bugünkü insanların ehtiyaclarını ödəmək və gələcək nəsillərin hüquqlarını qorumaq deməkdir.



Biomüxtəliflik artdıqca ekosistemlərdə maddə dövranı və enerji axını daha effektiv şəkildə baş verir. Əksinə, bir ekosistemdə biomüxtəliflik azaldıqda, ekosistemin axını pozulur. Məsələn, ilanlar siçan və qurbağa kimi canlı növlərini yaşadıqları ekosistemdə qida olaraq istifadə edirlər. Bu, siçan və qurbağa populyasiyalarının həddindən artıq artımının qarşısını alır. Nəticədə siçan və qurbağalarla eyni qidanı paylaşan digər heyvanların da yeməkdən faydalanmasına icazə verilir.

Biomüxtəlifliyin qorunması təkcə öz dəyərinə görə deyil, həm də bizi təmiz hava, içməli su, keyfiyyətli torpaq və bitkilərin tozlanması ilə təmin etdiyinə görə çox vacibdir. Bu, bizə iqlim dəyişikliyi ilə mübarizə aparmağa, iqlimə uyğunlaşmağa kömək edir və təbii təhlükələrin təsirini azaldır. Bioloji müxtəlifliyi təşkil edən bitki və heyvan növlərinin çoxluğu və müxtəlifliyi həmin ölkəyə iqtisadi gəlir də gətirir. Biomüxtəliflik ekosistemləri tarazlıqda saxlayır, planeti yaşanacaq səviyyədə saxlayır, insanların, ətraf mühitin və ekosistemlərin sağlamlığını dəstəkləyir.

Biomüxtəliflik pozulduğu zaman bitki və heyvanların təbii yaşayış alışqanlıqları da pozulur və bu da ekosistemə ziyan vurur. Qalıq yanacaqların yandırılması nəticəsində yaranan karbon qazı istixana effekti yaradır, qlobal istiləşmə istixana effekti nəticəsində baş verir, qlobal istiləşmə iqlimi dəyişir və bir çox canlıların ölümünə səbəb olur. Bioloji müxtəlifliyin azalması ilə qida zəncirinin pozulması və təbii tarazlığın pozulması ön plana çıxır.

Ən çox biomüxtəlifliyə malik ərazilər ekvatora yaxın tropik bölgələrdir. Məsələn, Amazon tropik meşələrində 40 mindən çox bitki növünün mövcud olduğu məlumdur. Meşələrin, okeanların, çayların, göllərin və torpaqların həddindən artıq istismarı, çirklənmə və artan qlobal iqlim dəyişikliyi nəticəsində artıq bu bölgələr də təhlükə altındadır. Bu müxtəliflik mülayim bölgələrdə azalır. Biomüxtəliflik məməlilərin, quş növlərinin, amfibiyaların, mərcanların, şirin su xərçəngi növlərinin sayəsində qorunur.

Ümumdünya Təbiəti Mühafizə İttifaqının məlumatına görə, biomüxtəlifliyə təsir edən amillər yaşayış yerlərinin itirilməsi və parçalanması, invaziv-yad canlı növləri, çirklənmə, iqlim dəyişikliyi, plansız urbanizasiya, əhalinin sürətli artımı kimi sıralana bilər. Dağ zirvələri və səhralar kimi soyuq və ya quru bölgələr iqlim şəraitinə görə biomüxtəlifliyin ən aşağı olduğu ərazilər hesab olunur.

Dünyadakı ölkələr arasında Braziliya planetin flora və faunasının ən böyük müxtəlifliyinə malik ölkədir. Braziliya ən çox məlum məməli və şirin su balıq növlərinə malik, 50.000-dən çox ağac və kol növünə malik ölkədir və bitki müxtəlifliyinə görə birinci yerdədir. Biomüxtəliflik baxımından ən aşağı sırada yer tutan ölkə San Marinodur. Bu kiçik Avropa ölkəsi qeydə alınmış heyvan növlərinin sayının azlığı və balıq növlərinin azlığı səbəbindən biomüxtəlifliyin ən aşağı olduğu ölkələrdən biri hesab olunur.

Azərbaycan coğrafi mövqeyinə və iqlim müxtəlifliyinə görə biomüxtəlifliklə çox zəngin ölkədir. Ölkəmiz Böyük və Kiçik Qafqaz dağlarının, Xəzər dənizinin sahil xəttinin və müxtəlif ekosistemlərin vətənidir. Bu müxtəlif ekosistemlər bitki və heyvan növlərinin müxtəlifliyini də artırır. Kiçik Qafqaz dağ silsiləsi alp çəmənlikləri, qarışıq meşələr və subalp çəmənlikləri də daxil olmaqla Azərbaycanın zəngin biomüxtəlifliyinə öz töhfəsini verir. Ölkə ərazisində 9 iqlim zonası üzrə 4500 növə kimi ali bitkilər qeydə alınıb, bu da Qafqazın növ tərkibinin 64%-ni, keçmiş sovet ittifaqının bütün florasının 24%-ni təşkil edir. Azərbaycan ərazisində faunanın 18 min növü qeydə alınıb, bu rəqəm məməlilərin 97 növünü, quşların 357, balıqların 100-ə yaxın, amfibiya və reptiliyaların 67 növ və yarımnövü, həşaratların 15 minə yaxın növünü əhatə edir.

***Lalə Mehralı***

## FELYETON



# Ata-baba çayı?..

***Həsən kişinin rayondan qonağı gəlmişdi. Kişi də nə eləsin, qonağı evdə dörd divarın içərisində saxlamayacaq ki. Dedi, ə, Məmməd, evdə oturmağa gəlmisən? Dur səni aparım, bir şəhərlə tanış ol, gör bir nə var, nə yox.***

Axşamüstü kişilər durub çıxdılar şəhərə. Üz tutdular birinci dəniz kənarına doğru. Axşamçağı olmasına baxmayaraq havadan od tökülür, sərinləmək bilmir ki, bilmir. Bu kişilər də yaşlı adam, nə eləsinlər. Bir yer axtarırlar ki, oturub dincəlsinlər. Məmməd kişi də rayondan gəlmiş adam, kəndin sərin havasına öyrəşmiş, burada da havasını, suyunu dəyişmişdi. Odur ki, dedi:

-Ay Həsən, gəl, oturub bir çay içək, dilim ağzımda yandı.

Yaxınlaşdılar bir məkana. İnsafən hər tərəf tər-təmiz, abad, gözəl, yaşıllıq və sairdir. Əyləşdilər. Həsən kişi ofisiantı çağırıb, bir çay sifariş verdi. Ofisiant soruşur ki, sadə olsun, yoxsa...

Həsən kişi də cavab verir ki, bala, çay sadə olar da. Başqa nə cür olur ki, bəlkə xəbərimiz yoxdur? Ofisiant da, ”yanında nə olsun demək istədim”,- deyir. Həsən kişi də deyir ki, yox, biz elə ata-baba çayı istəyirik.

Ofisiant gedir, bir azdan əlində məcməyi qayıdır, üzərində də bir çaynik çay, iki stəkan-nəlbəki, bir də ki, qənd.

Bunları ehmalca ağsaqqalların masasına qoyub qayıdır. Həsən kişi ilə Məmməd kişi də çaydan süzüb söhbət edə-edə içirlər.

Həsən kişi:

-Məmməd, deyəsən, yerini bəyəndin, ha. Qalx ayağa gedək, oturmağa gəlmisən, dur ayağa, gedək, gəzək.

Ofisiantı çağırırlar, Həsən kişi borcunu soruşur, o da deyir. Məmməd kişi tutulsa da, özünü Məmməd kişinin yanında sındırmır, pulu ödəyir, gedirlər. Ürəyində deyir ki, bax hələ, ayda 2-3 dəfə şəhərə çay içməyə çıxasan, pensiyanın yarısı gedər ki...

Həsən kişi düşünür ki, yüz ilin bir başı Məmməd durub rayondan onun evinə qonaq gəlib: ta simiclik etməyəcəm ki... Olmasın bu ayın pensiyasının yarısı.

Bu minvalla, gecə evə qayıdanadək 4 dəfə müxtəlif yerlərdə əyləşib çay içirlər. Həsən kişi 4 çaynik-həm də ata-baba çayı üçün 25-30 manat xərcləyir. Bunu Məmməd kişi də müşahidə edir. Evə qayıdanda yolda çayla bağlı söhbəti açır və deyir:

-Ay Həsən, bu çay nə yaman qiymətli olub belə? Ay qardaş, bir çaynik su, bir çimdik çay nə vaxtdan 5-6 manat olub ki? Heyif deyil rayon? Bir çaynik çay 1 manatdır. Nə qədər istəyirsən, iç.

Həsən kişi:

-Ay Məmməd, indi nə öz qiymətinə satılır ki? Kim nəyi neçəyə istəyir, satır. İstəyirsən al, istəmirsən xoş gəldin.

Kişilər söhbət edə-edə evə çatırlar. Evdə söhbətə Həsən kişinin oğlu da qoşulur. Deyir, siz hələ sadə çay içmisiniz, bu qədər gileylənirsiniz. Bəs sizə çay dəstgahı versəydilər, nə edərdiniz? Onun qiymətini eşitsəniz, bu gecə yuxunuz qaçar, ona görə də yaxşı olar ki, deməyim.

Kişilər bu məsələni müzakirə edirdilər ki, Həsən kişinin həyat yoldaşı Mənsurə xala ortaya pürrəngi çay gətirir. Həsən kişi bir çaya, bir Mənsurə xalaya baxır, deyir ki, ay Mənsurə bu gün anladım ki, yenidən dünyaya gəlsəm, ölənədək sənin tək bu çay haqqını ödəyə bilmərəm. Çaydır ki, dəmləmisən, çaydır ki, içmişik, çay nədir, say nədir, misalı.

Evdəkilər Həsən kişinin bu sözünə xeyli gülürlər...

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
22 may
2025-ci il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Uzaq qohum, yoxsa yaxın qonşu yaxşıdır?





*EKSPERT FİKRİ*

”Qan bağıyla olan qohumluq və qan bağlılıqı olmayan qohumlar arasında fərq vardır. Qan bağlılıqı olan qohumlar yaxın qohumlar sayılır, o cümlədən valideynlər, bacı-qardaşlar və s. Qan bağlılıqı olmayan qohumluq isə, məsələn, nikah yolu ilə qurulan əlaqələrdir. Hər iki halda da qohumluq mühüm bir sosial bağdır və həm mental dəyərlərimizdə, həm də dinimizdə qohumluq əlaqələrinə xüsusi önəm verilir”. Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.

Ramal Əliyev sözlərinə belə davam edib: ”İslam dinində qohumluq əlaqələrinin möhkəmləndirilməsi çox önəmli sayılır, hətta bir hədisdə bildirilir ki, qohumluq əlaqələrini möhkəmləndirən şəxsin ömrü uzanır. Hədislərdə qohumluq əlaqələrini kəsən müsəlman ciddi şəkildə məzəmmət olunmuşdur. Qonşular isə qohumluq bağı olmayan başqa bir sosial əlaqədir. Adətən qonşular bir-birilərinin evlərinə gedib-gələr, bişirdikləri yeməkləri bir-birinə ikram edər və evlərini bir-birinə etibar edərdilər. İslamda da qonşu haqqları mühüm sayılır. Hətta bir böyük günahın qonşuya qarşı edilməsi, digər birinə qarşı ediləndən 10 dəfə daha ağır sayılır. Peyğəmbərimizin (s.a.s) səhabələrindən birinin dediyinə görə, Allah Rəsulu qonşu haqlarından o qədər çox bəhs edib ki, bir zamanlar o qədər diqqət yetirilib ki, biz elə düşündük ki, öləndə qonşularımıza da mirasımızdan pay verməliyik.

Qohum və qonşu əlaqələrinin yaxşısı barədə mənim şəxsi fikrim belədir: yaxşı uzaq qonşu, pis yaxın qohumdan daha yaxşıdır; yaxşı uzaq qohum isə, pis yaxın qonşudan daha yaxşıdır. Elimizdəki bir atalar sözündə belə deyilir: ”Dişin ağrayır, çək getsin; qonşun pisdirsə, köç bitsin”. İslamda bir kişinin xoşbəxtliyinin səbəblərindən biri də yaxşı qonşusunun olmasıdır. Nəticə olaraq, həm qohumların, həm də qonşuların yaxşısı yaxşıdır, pisidə pisdir. Lakin, qohumundan və qonşundan pis olmağına baxmayaraq, bu, onları sevməmək və ya qarşı olmaq üçün bir səbəb olmamalıdır.İnsan həm qohumlarına, həm də,qonşularına faydalı olsun”.

***Ayşən Vəli***

# Ronaldo yenə gündəmdədir - bu dəfə bədən quruluşu ilə...



40 yaşlı portuqaliyalı futbol ulduzu Kriştiano Ronaldo adından söz etdirməyə davam edir. ”Əl-Nəsr”in hücumçusu bu dəfə vurduğu qollarla deyil, bədən quruluşu ilə diqqət mərkəzinə düşüb. Ulduz futbolçunun bədəni xüsusi cihaz vasitəsilə müayinə olunub.

İngilis mediasının yazdığına görə, bu mövsüm bütün turnirlərdə 39 oyun keçirib, 33 qol vuran portuqaliyalı futbolçunun bədəni vərdişləri, məşqi və fiziologiyası əsasında qiymətləndirilib. Cihaz Ronaldonun bioloji yaşının 28 il 9 ay olduğunu göstərib.

# Taksi sürücüləri kartla olan gedişlərdən imtina edirlər - SƏBƏB?




“Bugünkü gündə Azərbaycanda nəqliyyat vasitələrinin, xüsusən də taksilərin fəaliyyətində əsas meyar onların ödəniş sistemi ilə bağlıdır. Belə ki, taksilərdən istifadə zamanı, xüsusilə kartla ödəniş ediləndə, sürücülər bəzi hallarda pullarını ala bilmirlər, qalığı əldə edə bilmirlər”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Aslan Əsədov deyib.

Onun sözlərinə görə, bu isə onların məyusluğuna səbəb olur. Nəticədə onlar nağd ödənişə və ya digər sifariş sistemlərinə üstünlük verməyə çalışırlar: ”Başqa cür desək, nəqliyyat vasitələri üçün bugünkü gün əsas problemlərdən biri odur ki, bu və ya digər formada nəqliyyat vasitələrini idarə edən şəxslər mütləqdir ki, bu məsələlərə, xüsusən də ödəniş məsələlərinə önəm verməlidirlər. Əks halda, bu onlar üçün daha da çətin olacaq və məqsədlərinə çatmaqda əngəl olacaqdır. Yəni, bu, kartla ödəniş zamanı yaranan çətinliklərin daha da artması və nəticədə problemlərin çoxalmasına gətirib çıxarır.

Başqa sözlə, bugünkü gün nəqliyyat vasitələrini idarə edən şəxslərin qarşılaşdığı əsas problemlərdən biri məhz ödəniş sistemidir. Sürücülər bu məsələyə xüsusi önəm verməlidirlər. Əks halda, bu çətinliklər onların məqsədlərinə çatmasında əngəllər yaradacaq”.

***Ziya Hikmətoğlu***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**